

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Milli Qurtuluşun memarı



11

№ 103 (6786)

13 iyun 2023-cü il.
Qiyməti 60 qəpik

# Qardaşlığımız əbədidir!

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana dövlət səfərinə gəlib




Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə iyunun 12-də ölkəmizə dövlət səfərinə gəlib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

# Ermənistan

## SANKSİYALAR ASTANASINDA




5

## İordaniya nəşri: "Azərbaycan Ermənistanı sözdən əmələ keçməyə çağırıb"



3

## Naxçıvanın strateji inkişafında yeni hədəflər



6

## Yeni internet provayderin gəlişi nəyi dəyişəcək?



16



## İnsan ləyaqət hissini itirəndə...

10

## Asiyada antiamerikan oxu



8

# Yeni reallıqlara əsaslanan Azərbaycan-Rusiya münasibətləri

## İlham Əliyev: "Biz birgə səylərimizlə bundan sonra da gələcək əlaqələrimizin möhkəmlənməsinə, ticari-iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişlənməsinə xalqlarımızın və ölkələrimizin tərəqqisi naminə fəal kömək edəcəyik"

Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daim diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr və sazişlər imzalanıb və bu münasibətlər bu gün yeni müstəvidədir. Dövlət başçılarının keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr və vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Bu gün iki ölkə arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. Eləcə də 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalanıb.

Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərarası münasibətlər qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. "Azərbaycanı və Rusiyanı xalqlarımız arasındakı çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələri bağlayır. Bu gün bizim dövlətlərarası əlaqələrimiz, gündən-günə yeni sahələri əhatə edən sıx və etibarlı tərəfdaşlıq münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Böyük məmnuniyyətlə Azərbaycan-Rusiya əlaqələrinin ruhunu və





xarakterini əks etdirən, gələcək illər üçün çoxplanlı qarşılıqlı fəaliyyəti müəyyənləşdirən Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməni qeyd etmək istərdim. Əminəm ki, biz birgə səylərimizlə bundan sonra da gələcək əlaqələrimizin möhkəmlənməsinə, ticari-iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişlənməsinə xalqlarımızın və ölkələrimizin tərəqqisi naminə fəal kömək edəcəyik". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə dövlət bayramı - Rusiya Günü münasibətilə ünvanladığı təbrikində bildirib.

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitini qəbul etməsi əlaqələrin davamlığına söykənir. İqor Levitin Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, Ulu Öndərin 100 illiyinin Rusiyada geniş şəkildə qeyd olunduğunu məmnunluqla vurğulayıb.Görüşdə Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olunub. Söhbət zamanı Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı üzrə qarşılıqlı səylərin davam etdirilməsi, yük həcmlərinin artırılması, Azərbaycan ərazisində müvafiq infrastrukturdan istifadə imkanları, müasir nəqliyyat habına çevrilən ölkəmizin ərazisindən Bakı-Tbilisi-Qars və Şimal-Cənub nəqliyyat dəhlizləri vasitəsilə daşımalar barədə fikir mübadiləsi aparılıb.Gələcəkdə Zəngəzur dəhlizinin potensialından Rusiyanın istifadə imkanlarının araşdırılması ilə əlaqədar məsələlər müzakirə olunub. Azərbaycanda müasir gəmiqayırma sahəsinin imkanlarından istifadə edilməsi ilə bağlı fikir mübadiləsi də aparılıb.

### RUSİYA İLƏ AZƏRBAYCANI ÇOXƏSRLİK DOSTLUQ, MEHRİBAN QONŞULUQ TELLƏRİ BAĞLAYIR

Azərbaycan Rusiya münasibətləri bu gün yeni reallıqlara əsaslanır. Ötən ilin fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxış edərkən dövlət başçımızın bildirdiyi kimi, "Bizim görüşlərimizin intensivliyi əlaqələrimizin inkişafının dinamik xarakter daşımasına parlaq sübutdur. Rusiya ilə Azərbaycanı çoxəsrlik dostluq, mehriban qonşuluq telləri bağlayır. Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, bu əlaqələr bu gün keyfiyyətcə yeni səviyyəyə çatıb." Müstəqillik dövründə iki ölkə arasında mövcud olan münasibətləri qoruyub saxlayaraq keyfiyyət və mahiyyətcə yeni səviyyəyə çıxarmaq mümkün olmuşdur. Dövlətlərarası çox geniş müqavilə-hüquq bazası var. Moskvada imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə tərəflər arasında bir çox sahələrdə, o cümlədən hərbi-siyasi sahədə yeni əməkdaşlığın daha da möhkəmlənəcəyinə təkandır. Bu sənəd postsovet məkanında təhlükəsizlik sahəsində əməkdaşlıq üçün yeni imkanlar yaradır.

### BİZ BEYNƏLXALQ MƏKANLARDA FƏAL QARŞILIQLI ƏLAQƏ SAXLAYIRIQ, SİYASİ DİALOQ FƏALLAŞIR, İQTİSADİ ƏLAQƏLƏR MÖHKƏMLƏNİR

Vurğulamaq yerinə düşər ki, 4 aprel 1992-ci il tarixində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik əlaqələr qurulmuşdur və həmin ildə hər iki dövlətin qarşılıqlı olaraq səfirlikləri açılıb. Azərbaycan Respublikası Ali Sovetinin sədri kimi Heydər Əliyev 15 iyun 1993-cü ildə Milli Məclisin iclasındakı ilk çıxışında iki ölkə arasında münasibətlər qurulmasının vacibliyini belə şərh etmişdi: "Rusiya çox böyük dövlətdir, bizim şimal qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha yaxşı, daha geniş, səmərəli olmalıdır".

Son illər Azərbaycan və Rusiya arasında bütün səviyyələrdə intensiv siyasi dialoq gedir. Sistem xarakterli beynəlxalq-hüquqi sənədlərə söykənən münasibətlər yüksək dinamikaya malikdir. Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il tarixli müqavilə, 2001-ci il tarixli Bakı və 2004-cü il tarixli Moskva bəyannaməsi ilə inkişaf etdirildi. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan-Rusiya münasibətlərini xarakterizə edərkən belə demişdir: "Tez-tez baş tutan görüşlər, əlbəttə, bizim münasibətlərimizin inkişafına yeni təkan verir. Artıq çoxdan strateji tərəfdaşlıq səviyyəsinə çatmış bu münasibətlər bizim həyatımızın demək olar ki, bütün sahələrini əhatə edir. Biz beynəlxalq məkanlarda fəal qarşılıqlı əlaqə saxlayırıq, siyasi dialoq fəallaşır, iqtisadi əlaqələr möhkəmlənir, nəqliyyat və energetika sahələrində də yaxşı nəticələr var, humanitar əməkdaşlıq inkişaf edir".

### HUMANİTAR SAHƏDƏ SIX ƏMƏKDAŞLIQ

Azərbaycan və Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində imzalanan yuxarıda qeyd etdiyimiz sənədin imzalanması ölkələrimiz, qarşılıqlı əlaqələrimiz üçün, həm də regional təhlükəsizlik üçün əhəmiyyəti danılmazdır. "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə"nin imzalanması tarixi əhəmiyyətli sənəddir. Bəyannamə iki ölkənin qarşılıqlı əlaqələrinin ən vacib sahələrini əhatə edir. Bu sahələrdən biri də humanitar sahədir. Azərbaycanda digər xalqlar kimi ruslara da ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatına tam şəkildə inteqrasiya edə bilmək ucun hər cur şərait yaradılıb. Bildiyimiz kimi, Azərbaycanda rus ədəbiyyatına və mədəniyyətinə böyük maraq var. Məktəblərdə rus dilinin öyrənilməsi tam həcmdə saxlanılıb və 300-dən çox məktəb fəaliyyət göstərir. Paytaxtda Azərbaycan Dövlət Rus Dram Teatrı və Slavyan Universiteti fəaliyyətdədir. Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filialları açılıb. Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı çox uğurla fəaliyyət göstərir. "Biz demək olar ki, bu sahənin inkişafına müvafiq impuls veririk" deyən Prezident bildirib ki, Azərbaycanda ali məktəblərin rus bölməsində 15 mindən çox tələbə təhsil alır və rus dilində təhsilə maraq artır: "Ölkəmizdə Moskva Dövlət Universitetinin, Seçenov adına Tibb Akademiyasının filialları fəaliyyət göstərir və biz əməkdaşlıq potensialını artırmaq niyyətindəyik".

Qeyd edək ki, 2022-ci il "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin imzalanması, "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında" Müqavilənin təsdiq edilməsi, "Aqroekspress" layihəsi çərçivəsində Azərbaycandan Rusiyaya ilk yük qatarının göndərilməsi və digər mühüm hadisələr iqtisadi münasibətlərin inkişafında öz sözünü deyir. Bu gün ölkəmizdə Rusiya kapitallı yüzlərlə şirkət fəaliyyət göstərir. Azərbaycan Rusiya iqtisadiyyatına təxminən 1,2 milyard dollar, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4,9 milyard dollar sərmayə qoyub.

Cənubi Qafqaz regionunda yeni reallıqlar regiondakı bütün ölkələr arasında, o cümlədən Azərbaycan və Rusiya arasında qarşılıqlı əməkdaşlığı genişləndirib. Müasir dünyada Azərbaycan region ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsinin fəal tərəfdarıdır.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycanda münbit investisiya şəraiti mövcuddur

## Prezident İlham Əliyev "Starwood Capital Group" şirkətinin təsisçisi və icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də dünyanın aparıcı investisiya şirkətlərindən biri olan alternativ investisiyaların idarə edilməsi üzrə "Starwood Capital Group" şirkətinin təsisçisi və icraçı direktoru Berri Sternlixi qəbul edib.**

Azərbaycanda bütün sahələrdə gedən inkişaf proseslərini və qısa zaman ərzində əldə olunan uğurları qeyd edən Berri Sternlix ölkəmizin regionda böyük rola malik olduğunu dedi. Qonaq vurğuladı ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə çoxillik və möhkəm əməkdaşlıq rəhbərlik etdiyi şirkət üçün böyük önəm daşıyır və onlar gələcəkdə bu əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlıdırlar.

Prezident İlham Əliyev dünyanın nəhəng və qabaqcıl maliyyə təsisatları ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun "Starwood Capital Group" şirkəti ilə sıx əlaqələrinin olmasını müsbət qiymətləndirdi və mövcud tərəfdaşlığın daha da gücləndirilməsi üçün səylərin davam etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev qeyri-sabit maliyyə bazarları dövründə də Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin artmasının müsbət hal olduğunu dedi.

Görüşdə Azərbaycanda münbit investisiya şəraitinin mövcudluğu qeyd edildi, energetika sahəsi, xüsusilə alternativ enerji, logistika, turizm sahələrinə əlverişli investisiya qoyuluşu üçün yaxşı imkanların olduğu vurğulandı və bununla bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın aparıcı investisiya şirkətlərindən biri olan "Starwood Capital Group" 1991-ci ildə təsis edilib. Şirkətin daşınmaz əmlak, kredit və enerji infrastruktur strategiyaları üzrə idarə etdiyi vəsaitlərin ümumi dəyəri hazırda 120 milyard ABŞ dolları təşkil edir. Şirkətin baş ofisi Amerika Birləşmiş Ştatlarında yerləşir və 35-dən artıq ölkəyə investisiya həyata keçirib. Hazırda portfel şirkətlərində 5 mindən artıq əməkdaş çalışır.



# Prezident İlham Əliyev Xalq artisti Oqtay Mirqasımova "İstiqlal" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də görkəmli kinorejissor, ssenarist, Xalq artisti Oqtay Mirqasımova "İstiqlal" ordenini təqdim edib.**

**Xalq artistini təbrik edən Prezident İlham Əliyev dedi:**

- Hörmətli Oqtay müəllim, bu gün sizin yubileyinizdir. Bu yubiley münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illərdir kino sənətinin inkişafında çox fəal işləyirsiniz. Son illər ərzində Azərbaycanda gördüyünüz işlər hamımızı çox sevindirir. Siz həm görkəmli rejissor kimi, həm pedaqoq kimi böyük şöhrət qazanmısınız. Azərbaycan kinosunun inkişafında sizin çox böyük rolunuz vardır.

Oqtay Mirqasımov: Minnətdaram.

Prezident İlham Əliyev: Eyni zamanda, ictimai həyatda da fəalsınız, həmişə öz vətəndaşlıq mövqeyinizi bəyan etmisiniz. Cəmiyyəti narahat edən məsələlərlə bağlı sizin dəyərli fikirləriniz çox böyük önəm daşıyır.

Sizin fəaliyyətiniz Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Siz 2003-cü ildə "Şöhrət", 2018-ci ildə "Şərəf" ordeni ilə təltif olunmusunuz. Bu gün - yubileyiniz olan gündə siz Azərbaycan dövlətinin yüksək ordeni olan "İstiqlal" ordeni ilə təltif edilirsiniz. Mən sizi ürəkdən təbrik etmək və bu ordeni sizə təqdim etmək istəyirəm.

Dövlətimizin başçısı "İstiqlal" ordenini Oqtay Mirqasımova təqdim etdi.

Prezident İlham Əliyev: Təbrik edirəm.



Oqtay Mirqasımov: Siz həm gözəl sərkərdə, gözəl siyasətçi, sözündən dönməyən kişisiniz. Bu keyfiyyətlər bizim üçün önəmlidir. Biz uşaqlıqdan belə böyümüşük - həmişə əsgər, qəhrəman bizim üçün kumir olub. Allah razı olsun. Siz böyük Heydər Əliyevin - atanızın oğlusunuz. Bu, çox böyük bir işdir və adama nə qədər ruh verir. Bunu hər kəs bilir.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram.

# İordaniya nəşri: "Azərbaycan Ermənistanı sözdən əmələ keçməyə çağırıb"

İordaniyanın "Addustur" nəşrində "Azərbaycan Ermənistanı sözdən əmələ keçməyə çağırıb" sərlövhəli geniş məqalə dərc olunub. Məqalədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı təhlil olunub. İordaniya ictimaiyyətinin diqqətinə çatdırılıb ki, rəsmi Bakı Azərbaycanın normallaşma gündəliyinə sadiq qaldığını və Ermənistan tərəfindən qarşılıqlı siyasi iradə gözlədiyini bəyan edib. Yazıda qeyd olunub ki, Azərbaycan XİN-in rəhbəri hər iki tərəfin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və dövlət sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və onlara hörmətə əsaslanan dövlətlərarası münasibətlərin çərçivəsini təşkil edəcək ikitərəfli sazişin mətni üzərində danışıqlar apardığını deyib. O əlavə edib ki, son bir neçə həftə ərzində Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişineuda aparılan danışıqlar tərəflərin əsas narahatlıqları daha yaxşı başa düşməsinə və bəzi məsələlərlə bağlı fikir ayrılıqlarını azaltmağa kömək edib.

Məqalədə vurğulanıb ki, Azərbaycan normallaşma gündəliyinə sadiq qalır və ikitərəfli müzakirələrin gündəliyini formalaşdıran üç konkret istiqamət: dövlətlərarası münasibətlərin qurulmasına dair sazişin tezliklə imzalanması, dövlət sərhədinin delimitasiyası və regionda nəqliyyat kommunikasiyalarının açılması üzrə qalan fikir ayrılıqlarını aradan qaldırmaq üçün Ermənistan tərəfindən qarşılıqlı siyasi iradə gözləyir. Ermənistan tərəfindən Azərbaycanın, o cümlədən Qarabağ bölgəsinin suverenliyi və ərazi bütövlüyünün bəyan edilərək tanınması ehtiyatlı optimizm üçün zəmin yaradır. Bununla belə, həmişə olduğu kimi, əməllər sözlərdən daha yüksək səslə danışır. Sülh prosesində irəliləyişə nail olmaq üçün Ermənistan rəhbərliyinin bəyanatları bu ölkənin faktiki davranışında da öz əksini tapmalıdır.


الدستور

دخول

الرئيسية محليات قضايا واراء محافظات عربي ودولي اقتصاد رياضة الصحة ثقافة دروب شباب جامعات حوادث المزيد

الرئيسية / عربي ودولي

شارك الخط

### اذربيجان تطالب أرمينيا بترجمة أقوالها لتطبيع العلاقات إلى افعال



اذربيجان تطالب أرمينيا بترجمة أقوالها لتطبيع العلاقات إلى افعال

نشر في: الاثنين 12 حزيران / يونيو 2023. 01:43 مساءً
آخر تعديل: الاثنين 12 حزيران / يونيو 2023. 01:43 مساءً

عواصم - طالبت اذربيجان جارتها أرمينيا بترجمة أقوالها إلى أفعال لإستكمال عملية السلام وتطبيع العلاقات بين البلدين وانهاء الخلاف حول إقليم قرة باغ.

وقال وزير وزير الخارجية في جمهورية أذربيجان جَيْهون بايْراموف خلال الجلسة الخاصة للمجلس الدائم لمنظمة الأمن والتعاون في أوروبا إن أذربيجان حازمة وجازمة على إعادة دمج السكان الأرمن في إقليم قره باغ في الإطار السياسي والقانوني والاقتصادي والاجتماعي لأذربيجان كالمواطنين ذوي الحقوق المتكافئة.

مساحة إعلانية

Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinin önündə duran əngəllərdən bəhs edilən məqalədə bildirilib ki, nazir C.Bayramov bu məsələ ilə bağlı deyib: "Bu kontekstdə Ermənistanın Azərbaycanın suveren ərazilərində davam edən qeyri-qanuni hərbi mövcudluğu, daxili işlərimizə davamlı müdaxilə, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin erməni əsilli yerli sakinləri arasında dialoqa əngəl yaratması və beynəlxalq səviyyədə, o cümlədən ATƏT çərçivəsində genişmiqyaslı qarayaxma kampaniyasının aparılması bəyan edilmiş bu öhdəliyə ziddir və əksinə, Azərbaycan və Ermənistan arasında dövlətlərarası normallaşma üzrə danışıqlara əsas maneədir".

Sonda diqqətə çatdırılıb ki, Azərbaycanın xarici işlər naziri hökumətin gördüyü yorulmaz səylər nəticəsində məcburi köçkün ailələrinin birinci qrupunun artıq Azərbaycanın Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə qayıtdığını bildirib. Nazir əlavə edib ki, eyni zamanda, Azərbaycan ərazilərinin kütləvi şəkildə mina və digər partlayıcı maddələrlə çirklənməsi buna əsas maneədir və ciddi humanitar təhlükə yaradır. Fərq qoymadan basdırılan minalar demək olar ki, hər gün insanların həyatına son qoymaqda davam edir.




# Avropanın enerji təhlükəsizliyində alternativ və etibarlı layihə - Cənub Qaz Dəhlizi

## İLHAM ƏLİYEV: "Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və enerji şaxələndirilməsində müstəsna rol oynayır"

**Bəli, bu gün müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün ümummilli lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. Bu strategiya xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlənilməsinə cəlb edilməsini, xam neftin daşınma yollarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə olunmasını və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi.**

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan Azərbaycan xalqına müraciətində 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amil olduğunu deyib. Ümummilli lideri Heydər Əliyevin uzaqgörənliklə söslədiyi: ""Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl 21-ci əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, 21-ci əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır",- bu sözlər artıq bu gün ölkə Prezidenti İlham Əliyev uğurla, layiqincə davam etdirərək Azərbaycanı dünyanın aparıcı dövlətləri ilə bir sıraya yüksəltdi.

### "CƏNUB QAZ DƏHLİZİ BİZİM BİRGƏ TARİXİ NAİLİYYƏTİMİZDİR"

"Biz özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik. Azərbaycan çalışır ki, bu məsələdə geridə qalmasın, əslində lider, aparıcı ölkə olsun". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimindəki çıxışında söyləyib.

Burada söhbətin yenilənən, bərpaolunan enerjidən getdiyini qeyd edən dövlət başçısı deyib: "Mən çox şadam ki, yenilənən enerji ilə bağlı şirkətlər bu gün burada olduqca böyük çoxluq təşkil edir. Əminəm ki, illər keçdikcə bu şirkətlərin sayı artacaq. Yəni, biz tərəfdaşlarımızla birlikdə neft kəmərləri inşa etdik, neft yataqlarına sərmayə qoyduq, daha sonra qaz infrastrukturu inşa etdik. Cənub Qaz Dəhlizi bizim birgə tarixi nailiyyətimizdir, 3500 kilometrdən artıq neft kəmərlərindən ibarət bir sistemdir və o, enerji təhlükəsizliyi və enerji şaxələndirilməsində müstəsna rol oynayır".

Bəli, Azərbaycanın müəllifi olduğu Cənub Qaz Dəhlizi layihəsi region ölkələrinin və Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə hədəflənənə və 4 seqmenti özündə birləşdirən Cənub Qaz Dəhlizi layihəsinin icrasında - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində çox mühüm əhəmiyyət kəsb edən layihədir. Layihə həm mənbələrin, həm marşrutların şaxələndirilməsi deməkdir. Məhz enerji resurslarının şaxələndirilməsi, yeni marşrutların açılması ilə Avropa yeni mənbədən - təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetrə bərabər olan Azərbaycandan təbii qaz tədarük edəcək. Tarixə nəzər salaq. 2014-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyində Cənub Qaz Dəhlizinin təməlinin qoyulmasına həsr olunan təntənəli mərasim keçirildi. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizi dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Azərbaycan təbii qazının daha böyük həcmlərlə Türkiyəyə və Avropaya çatdırılması üçün isə Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsi icra edilib. Cənub Qaz Dəhlizinin digər tərkib hissəsi olan Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsi Azərbaycan və Gürcüstan ərazilərindən keçən yeni 48 düymlük boru kəmərinin, o cümlədən də Gürcüstanda 2 kompressor stansiyasının inşasını əhatə edir. Cənub Qaz Dəhlizinin sonuncu həlqəsi və Avropa hissəsi olan TAP-ın qaz boru kəmərinin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyuldu. TAP Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2" qazını Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşərək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayır. Buradan TAP kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq.

### AZƏRBAYCAN QAZI YENİ MƏNBƏDİR VƏ "CƏNUB QAZ DƏHLİZİ" YENİ ENERJİ DAMARIDIR

Göründüyü kimi, Azərbaycan qazı yeni mənbədir və "Cənub Qaz Dəhlizi" yeni enerji damarıdır. Bəli, bu real faktordur. Başqa cür desək, Cənub Qaz Dəhlizi layihəsinin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndiriləcək Cənubi Qafqaz Qaz Boru Kəməri (CQBK), Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Layihənin əsas məqsədi Avropaya qaz tədarükünün təhlükəsizliyinin təmin edilməsi və artırılmasıdır.

Həmçinin, Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyində də mühüm rol oynayan layihədir. Bu layihənin həyata keçirilməsində maraqlar balansı gözlənilib, yəni iştirak edən bütün tərəflərin maraqları təmin edilib ki, bu da çox önəmli amildir. Bütövlükdə Cənub Qaz Dəhlizi Azərbaycanın Avropanın enerji təchizatının şaxələndirilməsində, region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarılmasında, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır. Çünki Cənub Qaz Dəhlizi ideyası Azərbaycanın iradəsi və liderliyi sayəsində reallığa çevrilməyə başlayıb. Bu layihənin əhəmiyyətini Prezident İlham Əliyevin Macarıstana rəsmi səfəri zamanı mətbuata bəyanatında aydın görmək olur: "Vaxtilə NABUKKO layihəsi üzərində böyük işlər aparılmışdı. Ancaq maliyyə mənbələri müəyyən edilmədiyi üçün NABUKKO layihəsi icra edilmədi. Buna baxmayaraq, Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çatdırmaq üçün fəal çalışırdı və nəticə etibarilə iki il bundan əvvəl Cənub Qaz Dəhlizi icra edildi. Bu, çox müasir enerji infrastrukturudur, uzunluğu 3500 kilometrdir və artıq iki ildir ki, Azərbaycan Avropa İttifaqı məkanına öz təbii qaz resurslarını çatdırır".

Beləliklə, məhz Prezident İlham Əliyevin qətiyyəti, milli maraqlara əsaslanan düşünülmüş və prinsipial siyasəti nəticəsində reallaşan Cənub Qaz Dəhlizi Azərbaycanın Avropanın enerji təchizatının şaxələndirilməsində, region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarılmasında, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır. Bir sözlə, Azərbaycanın enerji diplomatiyası sahəsində qazandığı bu uğurlar bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu enerji strategiyası müstəqil dövlətimizi beynəlxalq aləmdə etibarlı enerji təchizatçısı kimi bundan sonra da qəbul ediləcək və ölkəmizin enerji potensialı getdikcə yüksək səviyyədə güclənəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Tərəqqi yolunda inamla addımlayırıq



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində iyunun 12-də YAP Nəsimi rayon təşkilatı tədbir keçirib.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə dair videoçarx nümayiş olunub.



Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər




Süleymanov bildirib ki, müdrik dövlət xadimi olan Heydər Əliyev tarixi şəraiti düzgün dəyərləndirərək Azərbaycanı tənəzzüldən xilas edib və tərəqqi yoluna çıxarıb. A.Süleymanov vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın davamlı və sürətli inkişafını təmin edib.

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirib ki, müasir Azərbaycanın bütün uğurlarının təməlində Ümummilli Lider Heydər Əliyevin xidmətləri, zəkası və uzaqgörən siyasəti dayanır. Azərbaycan bu gün Heydər Əliyev siyasətinin layiqli davamçısı olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tərəqqi yolunda inamla irəliləyir.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın tarixində yeni mərhələnin təməli qoyuldu. Onun sözlərinə görə, müstəqilliyimizin qorunub saxlanılması, dövlətçiliyimizin inkişafı Heydər Əliyev ideyalarına əsaslanan, ölkəmizin milli maraqlarına söykənən dövlət quruculuğu sayəsində mümkün olmuşdur.

YAP Nəsimi rayon təşkilatının fəal üzvü, ərazi partiya təşkilatının sədri Xaliq Hüseynov qeyd edib ki, Ulu Öndərin ölkəyə rəhbərlik dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Bu gün müasir Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edərək zirvələr fəth edir. Sonra partiya sıralarına yeni qoşulan bir qrup Vətən müharibəsi iştirakçısına üzvlük vəsiqələri təqdim olunub. Tədbir bədii hissə ilə davam edib.

# Ermənistan

# SANKSİYALAR ASTANASINDA

Moskva ilə İrəvan arasında mövcud siyasi münasibətlər heç də əvvəlki kimi, yaxud ermənilərin istədikləri kimi olmasa da, hətta mənfi olsa da, bu iki ölkə əlaqələrini nədənsə, yaxud nəyə görəsə davam etdirməkdədir və təbii ki, burada xüsusi bir məsələ mövcuddur, hansıki Qərb bunu açıq şəkildə artıq bəyan etməkdədir. Məsələ burasındadır ki, az qala bütün dünyanın Moskvaya qarşı sanksiya tətbiqi fonunda Ermənistan davamlı, fasiləsiz şəkildə Rusiyaya məhz sanksiyaya düşən malları ixrac edir. Təsadüfi deyil ki, ABŞ Dövlət Departamentinin Sanksiyalar üzrə Koordinasiya Ofisinin rəhbəri Cim O'Brayen Rusiyaya qarşı sanksiya tətbiq edilməsi fonunda məhz həmin ölkəyə sanksiyalardan çox uğurla yan keçməyə kömək edən beş ölkə arasında Ermənistanı da qeyd edib.




Doğrudur, Ermənistan barədə deyilənlər hələ o demək deyil ki, artıq cəza tədbirləri görülməkdədir. Onsuz da bu işğalçı ölkə barəsində dünyanın yanaşması hər zaman fərqli olub. Nədənsə rəsmi İrəvanın səhvlərini, yanılışlıqlarına ikiüzlülüklə göz yumulub. Hər dəfə qanunları, hətta beynəlxalq hüququ köbudcasına pozan Ermənistan barədə qəti qərar verilmir, səhvlərinin üstündən keçilir. Təbii ki, Qərbin ssenarisini canla-başla yerinə yetirən, özünün müstəqil siyasət aparmaq qabiliyyəti, iradəsi olmayan Ermənistanın hər dəfə sudan quru çıxması başadüşüləndir. Məsələ burasındadır ki, bu dəfə vəziyyət tamamilə fərqlidir və Rusiyaya qarşı tətbiq edilən sanksiyaların, Qərblə Kreml arasında gərginliyin, eləcə də Moskvanı diz çökdürmək planının fonunda Ermənistanın bir sıra malları həmin ölkəyə idxal etməsi artıq bərk qıcıq doğurub.

Diqqətə çatdıraq ki, ötən ildə Ermənistandan Rusiyaya ixrac təqribən üç dəfə artıb. Daha dəqiq desək, bu göstərici 841 milyon dollardan 2 milyard 411 milyon dollara qədər çoxalıb və bu artımda təkrar ixracın əhəmiyyətli paya malik olduğu faktı dəfələrlə vurğulanıb. Özü də məhz işğalçı ölkə hökuməti səviyyəsində etiraf edilib də. Düzdür, öz xislətlərinə və ənənələrinə görə ermənilər bəzi məsələləri yalandan və utanmadan təkzib etmək üzrə mahirdirlər və bu dəfə də iqtisadiyyat naziri Vahan Kerobyan deyib ki, guya ölkəsinin Rusiyaya təkrar ixrac etdiyi mallar sanksiyalara məruz qalan malları deyil. O əmin etməyə çalışıb ki, guya Ermənistan hökuməti ikinci dərəcəli sanksiyalara düşməmək üçün buna nəzarət edir. Bunun ağ yalan olduğunu hər kəs, xüsusən də Qərb tərəfi yaxşı bilir və Kerobyan detallara varmaq istəmədiyi özü də bəzi məsələlərin şübhəli olduğunu ortaya qoyur.

Erməni yalanlarına artıq inanan yoxdur və Qərb çox yaxşı bilir ki, sanksiyaya məruz qalmış malların, ilk növbədə texnologiya ilə bağlı alınmasında Moskvaya fasiləsiz olaraq kömək edən məhz Ermənistandır. Ola bilsin ki, Kerobyan, yaxud hansısa məmur fikir yayındırmaq niyyəti ilə asanlıqla yalan ifadələrə əl ata bilər, amma statistika buna inanmağa imkan verməz. Məhz statistik göstəricilər təsdiq edir ki, mexaniki və elektron avadanlıqların Ermənistandan Rusiyaya ixracı 2022-ci ildə 11 dəfədən çox artıb. Hətta o da sirr deyil ki, bu məhsulların heç bir faizini belə həmin respublika qətiyyən istehsal etmir. Deməli, Ermənistan üçüncü ölkələrdən malları əldə edərək Rusiyaya göndərir və nəticədə də ruslar sanksiyalardan yayına bilirlə, hansıki bunu Qərb artıq çoxdan bilir. İndi maraqlıdır, Ermənistanın bu addımına görə barəsində nə düşünülür? Hər bir halda bu dəfə üstndən keçiləcəyi, göz yumulacağı inandırıcı görünmür. Çünki Ermənistanın Rusiyaya ixrac etdiyi həmin mallar sıradan məhsullar sayılmır, xüsusi əhəmiyyətə malikdir və rusların sanksiyalara davamlılığını artırır.

Qərb indi Ukraynada müharibənin dayanmasının qarşısını alan ən lazımlı malların Ermənistan tərəfindən ixracından xəbərdardır. Sanksiyaların Koordinasiya Bürosunun rəhbəri Cim O'Brayen iyunun 8-də verdiyi bəyanatda bunu açıq-aşkar söyləyib. O, vurğulayıb ki, Rusiya postsovet ölkələrinin köməyi ilə Ukraynada müharibənin davam etdirilməsi üçün lazım olan elektronika idxalının səviyyəsini işğaldan əvvəlki dövrə çatdırıb. Sözsüz ki, burada postsovet ölkələrinin köməyi ilə dedikdə məhz Ermənistan nəzərdə tululur. Deməli, artıq rəsmi İrəvan ən azından Qərbin hədəfindədir.

Cim O'Brayenin təkrar idxalın sxemini belə açıqlaması təsdiq edir ki, məlumatlar tam dolğun və əsaslıdır. Sanksiyaların Koordinasiya Bürosunun rəhbəri açıq şəkildə bildirir ki, Avropa şirkətlərinin başqa ölkələrə satdığı mallar Rusiyaya məhz üçüncü ölkələridən gəlir və elə bu prosesin fonunda da üçüncü ölkələrdən çiplər, prosessorlar və digər elektronika almaqla Moskva sanksiyalardan yayınmaq şansı əldə edir. O'Brayenin fikrincə Rusiyanın sanksiyalardan yayınması ciddi problem olaraq qalır. Bu ciddi problem dediyini kimin yaratdığını aydınlaşdırmaq üçün isə postsovet ölkələrinin iqtisadi göstəricilərinə, ələlxüsus ixrac göstəricilərinə baxmaq kifayət edir. Statistik göstəricilər təsdiq edir ki, bu məsələdə, yəni Rusiyanın sanksiyalardan yayınmasına kömək edən ölkələr arasında öndə gedən elə Ermənistandır və bu ölkə sanksiyalara məhəl qoymadan, sıxışdırılması nəzərdə tutulan ölkəni elektron avadanlıqlarla fəal şəkildə təmin edən ən "qabaqcıl" MDB ölkəsidir.

Bu zamana qədər beynəlxalq ictimaiyyətin təzyiqləri ilə qarşılaşmadığına görə İrəvan sanksiyaların olmayacağı qənaətində ola bilər. İndi ermənilər elə zənn edə bilərlər ki, BMT-nin dörd qətnaməsinə 30 ilə yaxın müddət ərzində məhəl qoymadıqları zaman beynəlxalq ictimaiyyətin rəsmi şəkildə təzyiqinə məruz qalmayıblarsa, bu dəfə də yaxalarını qurtara bilərlər. İkiüzlülüyün, ikili standartların, təcavüzkarın müdafiə olunmasının şahidi olan haylar bu dəfə də onlara məhəl qoymayacaqları qənaətindədirlərsə, bərk yanılırlar. Artıq məsələ tamamilə başqa müstəvidədir, başqa məcradadır və dünya nəhəngləri məqam uğrunda qarşı-qarşıya gəldiyi anda, Qərb Rusiyanı çökdürmək istədiyi zaman, külli miqdarda resurs xərclədiyi halda hansısa bir Ermənistan adlı cırtdan dövlətin yolda tikan kolu kimi bitməsinə göz yumula bilməz. Ən xırda sanksiyanın İrəvanı tamamilə sarsıdacağını bilən Qərb çox güman ki, Ermənistanda rezonans yaratmaq üçün müvafiq ssenari hazırlayıb. İrəvan saymazyana siyasətə görə cavabdehlik daşımalı olacaq, çünki az qala bütün dünyanın tətbiq etdiyi sanksiyalar fonunda hoqqabazlıq edir və bunu da müşhidə etməmək mümkün deyil.

Ermənistan müəyyən olunmuş qırmızı xətti artıq çoxdan keçib və həmin ölkənin qadağan olunmuş malları Rusiyaya tədarük etməsi faktı bəllidir. Ələlxüsus da yüksək texnologiyalı məhsulların təkrar ixrac olunmasında Ermənistanın "payı" göz önündədir və bunu, qeyd olunduğu kimi, statistika təsdiq edir. Bütün bunlar isə Rusiyanın sanksiyalardan yan keçməsinə kömək etmək deməkdir və haylar elə bilirlər ki, bu cavabsız qalacaq? Ermənistanın Rusiyaya ixrac etdiyi məhsullar silah istehsalı və ya hərbi məhsulların hazırlanması istiqamətində birbaşa əlaqəli sayılan texnologiyalar üçün lazım olanlardır, hansıki bu sıraya müxtəlif cihazlar, sensorlar, yarımkeçiricilər, elektron vasitələr daxildir. Bunlar Qərbin diqqətindən yayınan deyil. O da diqqətdən yayınan deyil ki, Ermənistan açıq şəkildə, özü də saymazyana olaraq qadağalara məhəl qoymur, Rusiyanı təmin edir. Bəlkə də, Ermənistan özünü sanksiyalara məruz qalmayacaq xüsusi imtiyazlı ölkələrin hansısa siyahısında görür. Amma hadisələrin gedişi göstərdi ki, haylar bu dəfə də yanılıblar, çünki real mənzərə tamam başqa məqamlardan xəbər verir. Beləki, Vaşinqtonun bəyanatına görə, Ermənistan məhz cinayət başında yaxalanıb və ABŞ Dövlət Departamentinin, Qərbin sanksiyaları siyahısına düşüb. Onsuz da rəzalət, səfalət və xaos içərisində olan bir ölkənin ən azından mərhələli şəkildə müxtəlif məhdudiyyətlərlə qarşılaşacağının həmin ölkə üçün nə demək olduğunu təsəvvür etmək çətin deyil və Ermənistanın bundan qaçması artıq mümkün görünmür. Bir sözlə, hələ də gizləndiklərini zənn edən, yaxud ərköyünlük etməyə, ikiüzlülüyə, ikili standartlara bel bağlayan haylar bu dəfə hədəfdədirlər və indi Ermənistan sanksiyalar astanasındadır.

***İnam Hacıyev***

# Naxçıvanın strateji inkişafında yeni hədəflər





Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda, parlaq inkişaf yolu keçmişdir. Əsrlərdən bəri Şərq aləminin elmi-mədəni mərkəzlərindən biri kimi şöhrət tapan bu diyar tarixən çətin sınaqlarla dolu, mürəkkəb və eyni zamanda, şərəfli bir yol qət etmişdir. Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. Böyük Dövlət Xadimi Heydər Əliyev hələ sovet dövründə siyasi hakimiyyətə gəlişi ilə doğma Azərbaycanımız, onun hər bir guşəsi, eləcə də Naxçıvan Muxtar Respublikası özünün əsl inkişafına qovuşmuşdur. Naxçıvan Muxtar Respublikası qabaqcıl sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət mərkəzinə çevrildi. Naxçıvanın sənayeləşdirilməsinin əsası qoyuldu, 21 iri sənaye müəssisəsi tikilib istifadəyə verildi. Naxçıvan böyük tikinti meydançasına çevrildi, 45 min nəfər əhalinin yaşadığı yeni massivlər salındı, şəhər və rayonların, ucqar dağ kəndlərinin infrastruktur sahələri yeniləndi, təhsil, səhiyyə və mədəniyyət müəssisələri tikildi, köhnə kəndli komalarının yerində müasir üslubda abad evlər ucaldıldı. Naxçıvanın inkişaf yoluna çıxmasında Ulu Öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il tarixli birgə Qərarın mühüm əhəmiyyəti var. Sənəddə Naxçıvanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyuldu və onların icra müddəti müəyyənləşdirildi. Dahi Şəxsiyyət muxtar respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyəti ilə tanış olmaq üçün 1970-1982-ci illərdə 4 dəfə qədim diyarda səfərdə olması buranın daha da abadlaşmasına və inkişafına öz töhfəsini vermişdir.

## MİLLİ-DEMOKRATİK HƏRƏKATIN MƏRKƏZİNƏ ÇEVRİLƏN NAXÇIVAN

Ulu Öndərimiz hər zaman olduğu kimi, öz gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Burada muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail oldu. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən 12-ci çağırış birinci sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edildi. Ulu Öndərimizin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu. Həmçinin Naxçıvan Muxtar Respublikasının ali qanunvericilik orqanı olan Ali Sovetin adının dəyişdirilərək Ali Məclis adlandırılması muxtar respublikanın ictimai-siyasi həyatına yeni ab-hava gətirdi. Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyəti dövründə Ermənistan tərəfindən blokada şəraitində olan regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və tərəqqisi üçün əhəmiyyətli tədbirlər görülüb, aqrar islahatlar reallaşdırılıb. Məhz Ulu Öndərin siyasəti sayəsində bölgənin inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələr qurulub, sonrakı dövr üçün ölkəmizin bütün regionları kimi, Naxçıvanın da sosialiqtisadi inkişafında möhkəm bünövrə formalaşdırılıb. 1992-ci ilin noyabrında Naxçıvan şəhərində Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının əsası qoyuldu. Həmin dövrdə Naxçıvan bütün ölkədə milli-demokratik hərəkatın mərkəzi, möhkəm dövlətçiliyin, siyasi sabitliyin mövcud olduğu bir bölgə idi. XX əsrin 90-cı illərinin əvvəlində, SSRİ-nin süqutu ərəfəsində yaranmış şəraitdən istifadə edən Ermənistan Azərbaycana qarşı açıq silahlı təcavüzə başlayanda, Naxçıvan Muxtar Respublikası da çətin sınaq qarşısında qaldı. Bu diyarı Azərbaycanın əsas ərazisi ilə birləşdirən yollar bağlandı, Naxçıvan blokada şəraitində yaşamağa başladı. Belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın bu qədim torpağını erməni işğalı təhlükəsindən xilas etdi.

## NAXÇIVAN YENİ İNKİŞAF DÖVRÜNDƏ

1993-2003-cü illərdə də Ulu Öndər Heydər Əliyev bu diyardan qayğısını əsirgəmədi. Onun Azərbaycana ikinci dəfə rəhbərliyi dövründə muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı dövlət səviyyəsində qərarlar qəbul olundu. Ümummilli Lider tərəfindən əsası qoyulan bu işlərin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Naxçıvan diyarını yeni inkişaf mərhələsinə çıxarıb. İndi Naxçıvan Muxtar Respublikası milli dövlət quruculuğu prosesinin fəal iştirakçısıdır, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir. Bir sıra göstəricilərə görə, muxtar respublika ölkənin başqa regionlarından öndə gedir. Prezident İlham Əliyev qədim diyara səfərlərinin birində vurğulamışdır ki, mən hər dəfə Naxçıvana gələndə, yeni obyektlərin açılışında iştirak edəndə, çox sevinir və qürur hissi keçirirəm ki, Azərbaycanın qədim torpağı olan Naxçıvanda belə gözəl işlər görülür.

## "NAXÇIVAN MUXTAR RESPUBLİKASI BÜTÜN İQTİSADİ GÖSTƏRİCİLƏRİNƏ GÖRƏ ÇOX SÜRƏTLƏ İNKİŞAF EDƏN RESPUBLİKADIR"

Azərbaycanın, hər yerində olduğu kimi, bu gün Naxçıvan Muxtar Respublikası da yeni inkişaf dövrünü yaşayır. Bu günlərdə Azərbaycan Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı bu diyarın sosial-iqtisadi inkişafına daha da təkan olacaqdır. Dövlət Proqramı Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir. Qeyd olunan Sənəddə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilib. Son illərdə Naxçıvan Muxtar Respublikasında görülmüş işlər infrastruktur layihələrinin həyata keçirilməsinə, Naxçıvan Muxtar Respublikasında qazlaşdırmanın tam təmin edilməsinə, enerji təchizatının yaxşılaşdırılmasına, müasir yolların inşasına, sosial infrastruktur obyektlərinin tikintisinə və s. səbəb olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, "Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır". Son illərdə Naxçıvanda sənayedə, tikintidə, iqtisadiyyatda və sosial həyatın bütün sahələrində böyük uğurlar qazanılıb. Nəzərdə tutulmuş tədbirlərin, infrastruktur layihələrinin reallaşdırılması təmin edilib və sosial-iqtisadi həyatın bütün istiqamətləri üzrə müsbət dinamika əldə olunub. Belə ki, Naxçıvanda bütün qəsəbə və kəndlər müasirləşib, yenidən qurulub və asfalt yollar salınıb. Son illər muxtar respublikanın kəndlərində dövlət dəstəyi və güzəştli şərtlərlə verilən kreditlər hesabına yüzlərlə kiçik istehsal və emal müəssisəsi yaradılıb.

## ƏLVERİŞLİ BİZNES MÜHİTİ

Bu gün Naxçıvanda sənayenin və aqrar sahənin inkişafı yeni sahibkarlar təbəqəsi yaradıb. Dövlət Proqramında qeyd olunan prioritet istiqamətləri sırasında əlverişli biznes mühitinin yaradılması da diqqəti cəlb edir. Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın sürətləndirilməsi və iqtisadi canlanmanın təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması bu sahədə prosedurların sadələşdirilməsi və asanlaşdırılması məqsədilə tədbirlərin icrası vasitəsilə həyata keçiriləcəkdir. Qeyd olunduğu kimi, burada azad iqtisadi zonanın yaradılması ticarət və logistika imkanlarını genişləndirməklə Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq və iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfə verəcək. Həmçinin hüquqi və fiziki şəxslərə vergi və digər güzəştlərin tətbiq edilməsi ilə özəl sektorun inkişafına nail olunacaq. Bundan başqa, sosial sığorta ödənişlərinin tam və ya qismən dövlət tərəfindən subsidiyalaşdırılması nəzərdən keçiriləcək. Naxçıvanda əhalinin məşğulluğunun artırılması məqsədilə yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər həyata keçiriləcək. Ölkədə fəaliyyət göstərən bankların və bank olmayan kredit təşkilatlarının Naxçıvan Muxtar Respublikasında da filiallarının açılması ilə əhalinin, o cümlədən sahibkarların bank xidmətlərinə çıxışı asanlaşacaq, əhalinin və sahibkarların sığorta savadlılığının artırılması və sığorta xidmətlərinə əlçatanlığının inkişafı məqsədilə müvafiq tədbirlər görüləcək. Sahibkarlığın inkişafı, innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri həyata keçiriləcək. Sahibkarlıq subyektlərinə göstərilən xidmətlər vahid yanaşmada və mərkəzləşdirilmiş qaydada təşkil ediləcək. Bütün bu və ya digər tədbirlərin reallaşması əlverişli biznes mühitinin yaradılmasına öz töhfəsini verəcəkdir.

## ƏHALİNİN TƏHLÜKƏSİZ VƏ RAHAT YAŞAYIŞININ TƏMİNİ

Dövlət Proqramında sosial sektorun inkişafı, mənzil fondunun inkişaf etdirilməsi və əhalinin yaşayış sahələrinə tələbatının ödənilməsi məqsədilə, əhalinin güzəştli şərtlərlə mənzilə əlçatanlığı təmin edilməsi və s. öz əksini tapıb ki, bu da əhalinin təhlükəsiz və rahat yaşayışının təmin olunmasında mühüm addımlardır. Bununla yanaşı, ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin əhatə dairəsi genişlənəcək, aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə əlilliyi müəyyən edilmiş şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələr həyata keçiriləcək. Kütləvi bədən tərbiyəsi və idmanın həyat tərzinə çevrilməsi, böyüməkdə olan gənc nəsil üçün idman alətlərinin əlçatanlığının təmin edilməsi, əhalinin asudə vaxtlarının səmərəli təşkili üçün idman komplekslərinin yaradılması, əhalinin sıx yaşadığı şəhər və rayon məhəllələrində, parklarda və kəndlərdə açıq hava idman qurğularının qurulması layihələri icra olunacaq.

Dövlət Proqramının icrası məqsədilə müvafiq prioritet istiqamətlərə uyğun tədbirləri əhatə edən Tədbirlər Planının hazırlanması Naxçıvanın sosial-iqtisadi inkişafına müsbət təsirini göstərəcəkdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycan mətbuatı dini təhlükəsizlik kontekstində

**Hər gün həyatımıza dünənə nisbətən bir az da çox daxil olan media cəmiyyətlərin formalaşmasında, mədəniyyətlərin inkişafında mühüm rol oynayır. Həm mədəni əlaqələr, həm dini münasibətlər, həm də sadəcə, informasiya prizmasından baxdıqda medianın, əslində, həyatımızda hegemon ünsür kimi xarakterizə edilməsi doğrudur. Onsuz günə başlamırıq, informasiya ehtiyacımızı onunla ödəyirik, kimimiz ondan pul qazanırıq, kimimiz pul qazanmaq üçün ona yatırım qoyuruq. Yekunda bir gün hamımızın yolu ya ehtiyacdan, ya məcburiyyətdən, ya da həvəsdən media ilə kəsişir. Dindarın da, alimin də, həkimin də, ev xanımının da, şagirdin də. Medianın bizi yönləndirməsi prosesi də bu ehtiyacdan yaranır.**



## Din təhlükəsizliyi "Əkinçi"nin gözü ilə

Kütləvi informasiya vasitələri, 19-cu əsrdən bəri inkişafına durmadan sərmayə qoyulan, mədəniyyət aşılayan, daşıyan və yayan vasitə olub. Bu səbəbdəndir ki, ona həmişə cəmiyyətin güzgüsü kimi baxılıb. Medianın gündəminə çevrilən hər bir mövzu həm də cəmiyyətin diktəsi ilə populyarlaşır. Bunlardan biri də dindir.





Əslində, din mətbuatın inkişafından bəri medianın gündəmində olub. Azərbaycan milli mətbuatı 1875-ci ildə Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə həyatımıza girəndə qəzetin demək olar ki, hər nömrəsində islam dininin tarixi, dini savadlılıq və saxta din təhlükəsi ilə bağlı Səid Ünsizadənin məqalələri nəşr olunurdu. Daha sonralar Ünsizadə qardaşlarının yaratdıqları "Ziya", "Kəşkül" kimi nəşrlər İslam birliyi ideyasının tərəfdarı olması ilə yanaşı, xalqın dini və elmi baxımdan doğru maariflənməsinə xidmət edirdi.

Dövrün cahilliyi fonunda din mədəniyyəti, din elmi barədə məqalələri qəbul etdirmək, oxutmaq da asan deyildi. KİV-də din, din təhlükəsizliyi, dini anlayışların doğru çatdırılması prosesinin təməli də beləcə qoyulur. İnsanlar, gerçək dinin mollaların təbliğ etdiyi xurafat və qorxudan ibarət olmadığını görür, dini aclıqlarını din haqqında həqiqi biliklərlə doyururdular.

## Sosial mediada dini təbliğat

İnternetin təsiri ilə medianın yayım imkanlarının artması bir çox sahədə geniş auditoriya qazanmasına şərait yaratdı. Dinin texnologiyadan faydalanma fürsəti də beləcə ortaya çıxdı. Bu prosesdə mediada din, media orqanının profilinə də uyğunlaşdırılır. Mediada dinin populyarlaşmasında internetin, sosial şəbəkələrin də rolu əhəmiyyətli dərəcədə böyükdür.

Xüsusilə, sosial şəbəkələrdə bir çox mövzu istifadəçilər tərəfindən yaradılır, müzakirə edilir, yayılır. Ənənəvi mediada olduğu kimi, sosial şəbəkələrdə də din media məzmununa çevrilir, medianın xüsusiyyətlərinə uyğunlaşır, regenarasiyaya məruz qalır. Bəzən konteksindən çıxarılır, bəzən konteksinə geri qaytarılır. Bu müzakirə edənlərin sosial kimliyindən, təhsil səviyyəsindən, dini baxışından və biliyindən asılı olur. Təcrübə göstərir ki, din sosial şəbəkə istifadəçilərinin müzakirəsində, adətən, real kontekstindən çıxarılaraq cılızlaşdırılmış müzakirəyə çevrilir.

Doğrudur, gündəlik həyatın güzgüsünə çevrilən mediada istənilən mövzu müzakirə edilir, bu baxımdan, dini mövzular da istisna deyil. Narahatlıq doğuran isə odur ki, din adı altında zərərli ideologiyaları təbliğ edən, dini yazılar altında dini savadsızlıq yayan insanlar da çoxalıb. Belə yazılar, dini çıxışlar ciddi mediada özünə yer tapa bilmədiyindən sosial şəbəkələrdə yayılır. Əslində, bu vəziyyət bəzi kütləvi informasiya vasitələrində var idi, lakin kütləviliyi indiki kimi deyildi. Sosial şəbəkələr bu qrupların ayaq açıb yeriməsi üçün münbit yer oldu.

Belə məlumatların yayılması, kim olduğu bilinməyən din xadimlərinin çıxışları dini məlumatların doğru şəkildə ötürülməsinin dəyişməsinə səbəb olur. Yəni, hər başdan bir səs çıxır deyə, insanlar kimə inanacağını da bilmir, beləcə dində şaxələnmə yaranır. Digər tərəfdən, medianın da manipulyasiya xüsusiyyəti var. Xüsusilə, medianın qeyri-rəsmi bir qolu kimi qəbul edilən sosial şəbəkələrdə nəzarətsiz məlumatların, həmçinin terror təşkilatları və ya radikal dini qruplar tərəfindən informasiya buraxılması və milyonların istifadəsinə ötürülməsi mənfi təsirlərə səbəb ola biləcək vəziyyətlərdir.

## Sosial şəbəkələrdə radikal qrupların insan ovu

İndi kütləvi informasiya vasitələrinin gücü danılmaz və ölçülməz həddə çatıb, media hətta ötürmək, transformasiya etmək funksiyalarından kənara çıxıb, öz norma və dəyərlərini yaradır. Qloballaşan dünyada kommunikasiyanın inkişafı bu vasitələrin həyatımıza daxil olmasını sürətləndirdi və həyatımızın mərkəzinə çevrildi. İndi bir çox insanlar vaxtlarının böyük bir hissəsini ona həsr edirlər. Kütləvi kommunikasiyanın, sosial şəbəkələrin həyatımızda bu dərəcədə əhəmiyyətli yeri, onunla bərabər bir çox problemlər də gətirdi.

Çox yox, cəmi 20-30 il əvvəl hər auditoriyanın öz proqramı, mətbu orqanı vardı. Efir və nəşrlər yaş kateqoriyasına hesablanırdı. Müəyyən edilmiş vaxtda həmin kateqoriya efir qarşısında olurdu. Dövrümüzdə internet və texnoloji inkişaf medianın bu hədəfləməsini aradan qaldırdı. Azad internetə çıxışı olan, istənilən yaş qrupundan olan insan sərbəst informasiya əldə edə bilir. Təhlükə də burada yaranır. Fanatizmin əsiri olan qruplaşmalar sosial şəbəkələrdə qurban ovuna çıxır. İndi həyatı sosial mediadan ibarət kimi görən bir nəsil yetişib və onlar potensial qurbandır. İnsanları ideoloji cəhətdən istənilən yönə apara bilmə qüvvəsi olan media da "4-cü hakimiyyət" kimi xarakterizə edilir. Bu baxımdan nəzarətsiz internet suiistifadə üçün münbit şərait yaradır.

Bəzi radikal dini cərəyanlar sosial şəbəkələrdə, internetdə zərərli təbliğat aparmağa, ictimai qarşıdurmalar, təxribatlar yaratmağa çalışırlar. Təcrübə göstərir ki, Suriya və İraqda olduğu kimi, Azərbaycana qarşı da eyni hərəkətləri etməyə cəhdlər olub. Lakin media məlumatlılığı yüksək olan yerli internet məkanında bu təşəbbüs manea ilə qarşılaşıb. Şahidi oluruq ki, ölkəmizdə bəzi dini dairələr Aşura mərasimlərini başqa ölkələrin və xalqların adət-ənənələri ilə keçirməyə çalışıblar, qan tökmək, özünə zərər vermək kimi qəbuledilməz davranışlar nümayiş etdiriblər.

Lakin media məlumatlılığı və doğru maarifləndirmə sayəsində neqativ halların qarşısı alınıb, din pərdəsi altında Azərbaycan xalqının milli-dini mənsubiyyətinə qarşı çıxmağa imkan və şərait yaradılmayıb. Alqışlanası haldır ki, insanlar indi aşura mərasimlərində özünə zərər vermək yerinə qan bankına öz qanlarını bağışlayıb xəstə insanlara ümid olurlar.

## Dini maarifləndirmədə medianın rolu

Mediada qarşılaşdığımız daha bir təhlükə isə dini siyasiləşdirmək cəhdləridir. Azərbaycan mətbuatı, ziyalıları "Əkinçi" dövründən üzü bəri hər zaman dinin siyasiləşdirilməsinin əleyhinə olub, din pərdəsi altında dünyəviliyin əleyhinə təbliğat aparmağa mane olublar. Din xadimi adı altında sosial şəbəkələrdə, özlərinin təsis etdiyi media orqanlarında İslam adından danışan, haradan maliyyələşdiyi bəlli olmayan bir qisim insan müəyyən auditoriya yaradıb çirkin əməllərini həyata keçirir. Azərbaycanda islami hərəkatlar arasında siyasi, dini nifaq salmağa çalışan bu qüvvələrə qarşı ən böyük mübarizəni də ciddi media orqanları aparır.

Dinlə media münasibətləri həmişə aktual məsələ olub, bu gün də aktualdır. Mətbuat dini maarifləndirmə, dini radikalizmlə mübarizədə, həmçinin milli dəyərlərin təbliğində mühüm rol oynayır. Məhz buna görə, həm bu sahədəki dövlət orqanları, həm də qeyri-hökumət təşkilatları (Dini İşlər üzrə Dövlət Komitəsi, Mənəvi Dəyərlərin Təbliği Fondu, Qafqaz Müsəlmanları İdarəsi və digər idarə və təşkilatlar) dini maariflənmədə medaidan çox müsbət formada istifadə edirlər.

Bu gün radikal islam ölkəsində olduğu kimi, Azərbaycanda da din pərdəsi altında qadınların ictimai işlərdə təmsilinə, söz haqqına sahib olmalarına qarşı çıxanlar var. Bəzi dini qruplar məqsədyönlü şəkildə dünyəvi təhsilə qarşı çıxırlar, bəzi radikal dini cərəyanlar sosial şəbəkələrdə və internetdə bu yöndə təbliğat təşkil etməyə çalışırlar. Azərbaycan mediasının dini məsələlərə sağlam yanaşması bu qrupları sosial şəbəkələrə və xaricdən maliyyələşən, idarə olunan saytlara üz tutmağa vadar edir. Sosial şəbəkələr dini təhlükəsizliyi qoruya bilmir, çünki idarəetməsi mərkəzləşdirilmiş qaydadadır və yerli nəzarət mexanizmi yoxdur. Buna görə də mediaya çıxış imkanı olmayan istənilən şəxs canlı yayım açıb dini şərhlər verə, özünə auditoriya yarada bilir.

Media, dil, din, əxlaqi və mental dəyərlərə, habelə multikultural düşüncəyə söykənən dövlətçilik sisteminin görən gözü, vuran ürəyidir. Dövlətin etibar etdiyi, obyektivliyinə güvəndiyi media da bu güvəni doğrultmalı, din-dövlət balansını qorumalı, multikultural cəmiyyətin tələblərini və hüquqlarını müdafiə etməli, təhlükəsiz informasiya təminatını həyata keçirməlidir. Milli maraqlara söykənən, dövlətçilik dəyərlərinə sahib olan, sağlam cəmiyyət formalaşdırma çalışan media belə də olmalıdır.

***Lalə Mehralı***
***Yazı Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Milli Mətbuat Günü münasibəti ilə jurnalistlər arasında "Media və dini təhlükəsizlik" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.***

# Asiyada antiamerikan oxu

## *Tehranın da iştirak etdiyi üçbucaqda kimlər var?*

Hindistanın Baş naziri Narendra Modinin Vaşinqtona səfərini hazırlamaq üçün Prezidentin Milli Təhlükəsizlik Məsələləri üzrə köməkçisi Ceyk Sullivan Dehliyə gələcək. ABŞ rəsmi olaraq bildirildiyi kimi, Ukraynadakı hadisələrlə bağlı Vaşinqton və Dehli arasında fikir ayrılıqlarının olmasına baxmayaraq, Yer kürəsinin ən böyük demokratiyası ilə hərbi və sənaye əlaqələrini gücləndirmək istəyir. Amerikanın məqsədi Hindistanı Pekinin Asiyada hökmranlığına qarşı tarazlığa çevirməkdir. Lakin Çin diplomatları da boş oturmurlar. Onlar Pakistan və İranla onların suverenliyini təhdid edən qüvvələrə qarşı əməkdaşlıq etmək barədə razılığa gəliblər.

May ayında Cozef Bayden və Narendra Modi hökumətlərinə həm süni intellekt, həm də yarımkeçiricilər üzərində, xüsusən də orduda birgə işləməyi tapşıraraq, "Kritik Yeni Texnologiyalar Təşəbbüsü" elan ediblər. Amerikanın hind qırıcıları üçün "General Electric" mühərrikləri ilə təmin etməsi də nəzərdə tutulur.

Dünyanın ən böyük silah alıcısı olan Hindistan xarici silahların demək olar ki, yarısını Rusiyadan alır. O, onilliklər ərzində döyüş təyyarələri, tanklar, nüvə enerjisi ilə işləyən sualtı qayıqlar və təyyarədaşıyan gəmilər alıb. Vaşinqton, təbii ki, Hindistan bazarında Rusiya silahlarının payını azaltmağa çalışır.

Moskva Ukraynada xüsusi hərbi əməliyyatla məşğul olsa da, Pekin Amerikanın diplomatik hücumuna ciddi cavab verib. Çinin paytaxtında Çin, Pakistan və İran nümayəndələri arasında danışıqlar keçirilib. Çin Xarici İşlər Nazirliyinin məlumatına görə, regiondakı vəziyyətlə bağlı ilk üçtərəfli antiterror dialoqu baş tutub.

Problemin hərtərəfli müzakirəsi nəticəsində belə görüşlərin mütəmadi olaraq təşkil edilməsi qərara alınıb. Lakin Pakistan Xarici İşlər Nazirliyinin məlumatından da göründüyü kimi, müzakirə təkcə terrorizmlə bağlı deyil, həm də daha geniş problem - regionda təhlükəsizlik vəziyyəti ilə bağlı olub. Tərəflər üçtərəfli məsləhətləşmələri daimi quruma çevirmək qərarına gəliblər. Pakistan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Terrorla Mübarizə Baş direktoru Əbdül Həmid, Çin nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Xarici Təhlükəsizlik Departamentinin baş direktoru Bay Tian, İran nümayəndə heyətinə isə xarici işlər nazirinin köməkçisi Səid Rəsul Musavi rəhbərlik edib.

Pakistanın "Dawn" qəzeti xatırladır ki, may ayında İslamabad Pakistan, Çin və Əfqanıstan arasında xarici işlər nazirləri səviyyəsində üçtərəfli dialoq keçirib. Bu, mütəxəssislərin diqqətindən yayınmayıb. Avstraliyanın LOWY İnstitutu qeyd edir ki, keçən ilki daşqınlardan hələ də özünə gələ bilməyən və İmran Xanın baş nazir postundan devrilməsindən sonra siyasi fırtına ilə üzləşən Pakistan Cənubi Asiyanı xaosdan uzaq tutmağa çalışmaqda böyük rol oynayır. Rusiya da bu istiqamətdə işləyir. Aprel ayında o, Səmərqənddə Rusiya Federasiyası, Çin, İran və Pakistan xarici işlər nazirlərinin dördtərəfli görüşündə iştirak edib. Sonra vəziyyət Amerika qoşunlarının Əfqanıstandan tələsik çıxarılması fonunda müzakirə edilib.

Ali İqtisadiyyat Məktəbinin Şərqşünaslıq Məktəbinin rəhbəri Andrey Karneev qeyd edib ki, Pakistan uzun onilliklər ərzində Pekinin yaxın müttəfiqi olub. Orada ona "hər havada tərəfdaş" deyilir: "İran Pekinlə, o cümlədən təhlükəsizlik sahəsində də əməkdaşlıq edir. Ona görə də üçtərəfli formatın çəkilməsində təəccüblü heç nə yoxdur. Pakistanla İran arasında da münasibətlər yaxşıdır. Bütün bu ölkələr öz daxili sabitlikləri ilə bağlı çətinliklərlə üzləşirlər. Ən güclü güc olan Çin gələcək illər üçün strategiyasını formalaşdırır. Və bu halda o, uzunmüddətli perspektivə malik yeni üçtərəfli mexanizmin formalaşmasında iştirak edir. Rusiya da bu üçtərəfli əməkdaşlığın inkişafında maraqlıdır. Axı o, Çin, Pakistan, Hindistan, İranla birlikdə Şanxay Əməkdaşlıq Təşkilatının üzvüdür".

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi İrina Fedorova söhbətində qeyd edib ki, Çin, İran və Pakistan arasında qarşılıqlı əlaqə Əfqanıstanın hara doğru getdiyi ilə bağlı narahatlıq hissləri ilə bağlıdır. Çin üçün Pakistandan keçən "Bir kəmər, bir yol" infrastruktur layihələrinin təhlükəsizliyini təmin etmək vacibdir. İran da Pakistan kimi əməkdaşlıqda maraqlıdır. Üstəlik, nə Tehran, nə də İslamabadın nəzarətində olmayan Bəlucistanda terrorçu qruplar fəaliyyət göstərir. Lakin Pakistan ağır iqtisadi vəziyyətdədir və Vaşinqtonun tövsiyələrindən çox asılıdır. Bu, mümkün üçtərəfli koalisiyanın yaradılması yolunda çətinliklər yaradır.







### İslahatçılardan İranı xilas etmək planı

İranın keçmiş xarici işlər naziri Məhəmməd Cavad Zərif Tehranın siyasi mətbəxi ilə bağlı silsilə açıqlamalar verməklə ictimai fəallığını nəzərəçarpacaq dərəcədə artırıb. İslahatçılar düşərgəsinə mənsub olan təqaüdçü diplomat açıq şəkildə bildirib ki, Tehranın son illərdə üzləşdiyi bir çox probleme görə hakim elitanın məsuliyyəti var. Zərifin çıxışı keçmiş rəhbəri, eks-prezident Həsən Ruhaninin siyasətə qayıdışı ilə bağlı şayiələrlə səsləşir. Ekspertlər etiraf edirlər ki, daxili böhran və xarici təzyiqlər hakimiyyətin şərti liberalların səslərinə ehtiyacını artırır.

Zərifin son çıxışlarından birində təxminən 40 min dinləyicinin qatıldığı beş saatlıq söhbətdə keçmiş nazir Tehranın bir çox idarəçilik və diplomatik yanaşmalarını şübhə altına alıb. Belə ki, o bildirib ki, İran rəhbərliyi ABŞ-ın "iqtisadi və hərbi gücünə qarşı çıxmaq" iqtidarında olmadığından xəbərdar olmalıdır. Zərif İslam Respublikası üçün yeganə təsirli müqavimət taktikasını, onun sözlərinə görə, "nüvə sazişi" üzrə danışıqlarda kifayət qədər zəif davranan Avropa ölkələrinə siyasi təzyiq adlandırıb, çünki onlar Amerikanın iqtisadi təzyiqinə məruz qalıblar.

Zərif vurğulayıb ki, Tehrana beynəlxalq sanksiyalardan çıxmağa və regional təhlükəsizlik tənliyini yenidən formalaşdırmağa imkan verən orijinal Birgə Hərtərəfli Fəaliyyət Planından (JCPOA) daha yaxşı bir razılaşma şansı yoxdur. 2021-ci ildən bəri onu bərpa etmək səyləri Cozef Bayden administrasiyası tərəfindən fəal şəkildə həyata keçirilir.

"Əgər 2015-ci il müqaviləsi dəfn edilsə, başqa heç bir razılaşma Qərbin tələblərini təmin edə bilməz", - deyə sabiq nazir bildirib. "Biri mənim haqqımda deyib ki, "Zərif hətta eskimosa buz da sata bilər". Düşünürəm ki, bir eskimosa iki dəfə buz satmaq olmaz". O, etiraf edib ki, Yaxın Şərq oyunçuları hətta razılaşmanın olmamasından razı qalacaqlar. "Səudiyyə Ərəbistanında JCPOA-nın qüvvəyə mindiyi gün matəm günü idi", - Zərif deyib. "Mən Səudiyyə Ərəbistanı ilə əlaqələrin bərpasını ürəkdən alqışlayıram, lakin biz açıq gözlə irəliləməliyik".

Keçmiş nazir hesab edir ki, İranın ali lideri Əli Xamneyi olmasaydı, JCPOA ciddi maliyyə sığortasına malik ola bilərdi. O xatırladıb ki, Dövlət Departamentinin təşəbbüslərindən biri ABŞ şirkətlərinin xarici filiallarına İrana sərmayə qoymağa icazə vermək olub. Zərif deyib ki, bu, ABŞ-a JCPOA-nın iqtisadi faydalarını təmin edəcək: "Lakin İran 85 milyard dollarlıq təklifdən yalnız 13 milyard dollarlıq investisiya təkliflərini qəbul edib".

Onun sözlərinə görə, Xamneyi ABŞ sərmayəsinə qarşı deyildi, lakin əsas mallar üçün ABŞ investorlarından asılılıqdan iyrənirdi. Zərif vurğulayıb ki, əgər bu mövqe olmasaydı, Donald Tramp JCPOA-dan çıxarkən 85 milyard dollarlıq manea ilə üzləşəcəkdi.

Təqaüdçü diplomat deyib ki, "nüvə" danışıqları zamanı İranın ali lideri Əli Xamneyi danışıqlar masası arxasında baş verən hər şeydən xəbərdar olub, ona bütün görüşlərin və mübahisələrin stenoqramı verilib. "Bəzən şərh verirdi, bəzən də şərh etmirdi", - deyə keçmiş nazir xatırladıb və rəhbərin bütün fikirlərlə razılaşmadığını bildirib. Lakin İranın aşağı rütbəli məmurlarının təşəbbüsü ilə bəzi şeylərin də qarşısı alınıb.

Zərif deyib ki, ABŞ JCPOA-dan çıxdıqdan sonra senatorlardan biri ona Trampdan Ağ Evə dəvət göndərib. Keçmiş diplomat xatırlayır: "Mən bu mesajı Tehrana göndərmişəm. "Lakin o, hakimiyyətin ən yüksək eşelonlarına çatmadı və daha aşağı səviyyələrdə rədd edildi".

Zərif ötən həftə müxtəlif sosial platformalardan istifadə edərək açıqlamalarını paylaşmağa başlayıb. Bu, bir tərəfdən keçmiş xarici işlər nazirini ənənəvi olaraq qərbyönlü və həddən artıq yumşaq hesab edən mühafizəkar düşərgənin tənqid dalğasına səbəb oldu, digər tərəfdən isə tənqid axınının fenomen olub-olmaması suallarını doğurdu. Amwaj mediası, 2024-cü ilə planlaşdırılan yerli parlament seçkiləri ilə əlaqədar olaraq, Xamneyinin "siyasi sistemi yenidən balanslaşdırmaq üçün güclü daxili stimullara sahib olduğunu" təklif edir. Onun fikrincə, bu, islahatçı fraksiyaya mənsub şəxslərin qanunverici orqana namizədliyinə icazə veriləcəyi ilə bağlı şayiələri gücləndirir.

Müşahidəçilər Zərif ətrafında mövcud vəziyyətin mühüm fonunda Amerika vətəndaşlığı olan məhbusların azad edilməsi və Cənubi Koreyanın İslam Respublikasının 7 milyard dollar məbləğində aktivlərinin dondurulmasının açılması ilə bağlı Vaşinqton və Tehran arasında dolayısı ilə aparılan məxfi danışıqlara dair hesabatları nəzərdən keçirirlər.

Rusiya Xarici Əlaqələr Şurasının eksperti Nikita Smaqin deyib ki, İran daxili siyasi böhran vəziyyətindədir. İran elitasının əksəriyyəti bunu başa düşür. Vəziyyət keçən il etirazların başlaması ilə bağlıdır ki, onlar intensivliyi səngitsə də, ümumilikdə dayanmayıb. Bunun fonunda islahatçı siyasətçilər önə çıxır". Smagin xatırladıb ki, keçmiş prezident Ruhani son vaxtlar aktivlik nümayiş etdirməyə başlayıb. İndi Zərif var. Bundan əvvəl isə etirazlar zamanı islahatçı düşərgənin nümayəndələri ilə görüşlər keçirildiyi, onların cəmiyyətlə danışması, dialoq imkanı tapması ilə bağlı məlumatlar yayılıb. Ümumiyyətlə, hər şey elə görünür ki, mühafizəkar elita böhranı həll etmək üçün heç olmasa əvvəllər istifadə olunan üsullarla - başqa düşərgə cəlb etməklə potensial variant tapmağa çalışır". Təhlilçi hesab edir ki, bunu daxili siyasi vəziyyət diktə edir, baxmayaraq ki, bu, xarici siyasət problemləri ilə yanaşı gedir. Son zamanlar ölkə hökumətindən kənarlaşdırılan liberalları cəlb etmək cəhdi ciddi nəticə verə bilər.

**V.VƏLİYEV**

***P.S. Məqalədə xarici mənbələrdən istifadə olunub.***

# Bu yol Heydər yoludur, Ulu Öndər yoludur

(Poema)

## Heydər Əliyev - 100

***Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalamışdır.***



I
İki böyük Türk oğlu
Ərdoğan, Heydər oğlu.
Əsrin nəbzini duyub
Bünövrə, təməl qoyub:
Azərbaycan- Türkiyə
Birliyi, qardaşlığı,
Dostluğu, sirdaşlığı
Tarixlərin şöhrəti,-
Tarixlərdə qalacaq!
Bütün arzu, kamını,
Eşqini, ilhamını,
Əzmini, qürurunu,
İşığını, nurunu
Dünya bizdən alacaq.
Bizim bu birliyimiz



***Valeh Sefiyev***

Dünyanın dayağıdır.
Dünyanın rahatlığı,
Dincliyi, növrağıdır.
Bunu duymaq çətindi?!...
...Vaxt çatıb, bu gün, indi
Dünya keçir ələkdən.
Xoşlanmır daha dünya
Xoş olmayan diləkdən.
Kim var kimin yanında?-
Düşmən də bunu görür.
Dərhal, göz qırpımında
Hesabını götürür.
...Vaxt çatıb, bu gün, indi
Dünya keçir ələkdən-
Xoşlanmır daha dünya
Xoş olmayan diləkdən.
Vicdansızlar, qansızlar
Bunu bəzən unudur.-
Həyatın, yaranışın
Əzəli qanunudur:
Aqillər divanında
Günahlar yüz ölçülür,
Bir doğranıb biçilir.
Günahlar bağışlanır;
Günahkarlar əzilir,
Xırdalanır, kiçilir.
Yalanın ətəyindən
Yapışıb, tutub bərk-bərk,
Yalandan həyat umub
Yalana yalvarmarıq.
Mərdanə doğulmuşuq,
Yenə mərdanə varıq.
Yenə ər oğlu ərik!-
Ədalət istəyirik,
Həqiqət istəyirik.
Tanrının səxavəti;

Qəzəb aşıb-daşanda,
Ədavət qızışanda
Od üstünə su tökən,
Mərd, adil, quran, tikən
Əzabkeş nəsillərin,
Eşq dolu könüllərin
Müqəddəs əmanəti
Bütün Yer kürəsinə
Hürriyyət istəyirik.
Bizim bu birliyimiz,
Qardaş əlbirliyimiz
Dərdlərin, bəlaların
İnsanlığın başından
Sovuşmağı üçündür.
Dünyanın səadətə
Qovuşmağı üçündür.
Qoy vicdanlar oyansın,
Sənin kərəmin artsın.
Qoy dünyanın əşrəfi
Gülərüz insanların
Sayı birə-min artsın.
Yol gedən yolçulara
Gözümüz çıraq olsun.
Qoy bu Türk birliyinə
Arvad-uşağı ilə
Kiçik bacısı ilə
Makron da qonaq olsun.
Mən kimlərdən acizəm,
Cəsarətsiz, gücsüzəm?!-
Mehribanlıq yerinə
Məndən acıq, kin görüb,
Düşmən qoluna girib,
Mənə yad olsun onlar
Mənim böyük Allahım,
Mələk Bayraqdarlarım;
Mənim dəmir yumruğum,
Dəmir əsgərlərim var.
Nə alovdan qorxuruq,
Nə oddan qaçırıq biz,
Sal buzu baltalayıb
Yarıb yol açırıq biz.
İndi ən ağır işə
Bizim əlimiz yatır.
Qorxu, təlaş içində
Düşmən düşüb təşvişə.-
Bizim gücümüz çatır
Okeanlar adlayıb
Daha qalın buzları
Qırmağa hazırıq biz.
Qızıl qanı sorulmuş,
Alçaq, namərd əllərdə
Çox çırpınıb yorulmuş,

Bizim üçün çox ağır,
Ədalətsiz qurulmuş
Dünyanın tarixini
Yenidən yazırıq biz.
Bu yol Heydər yoludur,
Ulu Öndər yoludur.
Bizim arzumuz budur:
Dünya səhmana düşsün,
Kamal qələbə çalsın.
Yer kürəsi, kainat
Arxayın nəfəs alsın
Qoy hamının gözündə
Sevinc atəşi yansın.
Qoy dünyanın başına
Bütün xalqlar, millətlər
Gülə-gülə, qol-qola
Halay vurub dolansın.
Niyyətimiz belədir,-
Qüdrətimiz belədir.
...Bizim bu birliyimiz
Dünyanın dayağıdır.
Dünyanın rahatlığı,
Dincliyi, növrağıdır.
Özgədir indi dünya,
Güzgüdür indi dünya.
Bir ötəri baxmaqla,
Bura, bəri baxmaqla
Doğru kimdir bilinir,
Aydınlaşır, tanınır,
Zəkamızın gücünə
Bütün dünya, kainat
Bel bağlayır, inanır.
Bizim qayğımız ilə,
Sual, sorğumuz ilə
Ədavət lənətlənir,
İnsanlıq üzə çıxır.
Dünyanın bu başından
O başına, nə vaxtdır
Silah, sursat yerinə
Ruzi, bərəkət axır.

II
Bizim Turan elləri
Bir müqəddəs ocağın
Başında oturacaq-
Bir sinənin altında
Milyon ürək vuracaq.
Fərəh aşıb-daşacaq,
Hamı doğmalaşacaq.
Əcdadların ruhu da
Min illik bir yuxuda-
Beşiyində uyuyan

Məsum bir körpə kimi
Qucaqlayıb dünyanı
Şirin bir kökə kimi
Sevinəcək, güləcək.-
Bizimlədir sabahlar!
Bizimlədir gələcək!
Əsr Türkün əsridir!
Sülh, toy-düyün əsridir!
Ərzin qismətidir bu,
Şövqi, şəfqətidir bu.

III
İki böyük Türk oğlu
Ərdoğan, Heydər oğlu
Əsrin nəbzini duyub
Bünövrə, təməl qoyub:
Azərbaycan- Türkiyə
Birliyindən güc alıb
Mənim Azərbaycanım,
Mənim ürəyim, canım
Hər sınaqdan üzüağ,
Alnıaçıq çıxacaq.
Qarşımızda daha da
Geniş, aydın, işıqlı,
Al-əlvan yaraşıqlı
Üfüqlər açılacaq.

IV
Nəsillər dəyişəcək,
Qərinələr ötəcək,
Azərbaycan - Türkiyə
Birliyi, qardaşlığı,
Dostluğu, sirdaşlığı
Eralar qət edəcək.-
Bu yol Heydər yoludur !
Ulu Öndər yoludur !

V
Əsrlərin dolanbac
Əzablı yollarında,
Zülmətlərin daha
Qatılaşan, tündləşən,
Sərtləşən, kömürləşən,
Dəmirləşən vaxtında
Azərbaycan-Türkiyə ! -
Bu birliyin, dostluğun
Qardaşlığın işığı
Həyata qənim çıxan,
Ölüm üçün darıxan,
Qan daman, nəfəs tıxan
Zülmətləri boğacaq.
"Azərbaycan dünyaya

# Ümummilli Liderin siyasi irsi dövlətçilik konsepsiyasıdır

## Saatlıda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib




“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Saatlı rayon təşkilatı iyunun 12-də rayon Mədəniyyət Mərkəzində ”Heydər Əliyevin həyatı Vətənə, xalqa, dövlətə xidmət nümunəsidir” mövzusunda tədbir keçirib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Saatlı rayon təşkilatının sədri Lütvəli Şıxəliyev bildirib ki, Azərbaycanın zəngin dövlətçilik və möhtəşəm inkişaf tarixinin ən parlaq və şərəfli dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bütün varlığını doğma xalqına xidmətə həsr edən müdrik siyasətçi və dövlət rəhbəri kimi Ulu Öndərin adı Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılıb. Məhz Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya birliyində öz layiqli yerini tutmuşdur. O qeyd edib ki, Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tərəqqisini təmin edib, torpaqlarımız işğaldan azad olunub. Ölkəmiz möhtəşəm uğurlara və qələbələrə doğru inamla irəliləyir.





Tədbirdə çıxış edən Saatlı rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov söyləyib ki, müasir müstəqil Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyev tarix yaradan əvəzolunmaz şəxsiyyətdir. Onun sözlərinə görə, məhz Heydər Əliyev ideyaları əsasında dövlətimizin maraqları naminə praqmatik siyasət həyata keçirən Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Zəfər zirvəsinə yüksəlmişdir. Bu gün Azərbaycan dinamik inkişaf edən, beynəxalq müstəvidə layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir.

YAP İdarə Heyətinin üzvü, professor Tofiq Cahangirov çıxış edərək vurğulayıb ki, Ulu Öndər fəaliyyəti boyunca tarixi və siyasi ənənələrə, milli dəyərlərə xüsusi diqqət yetirməklə yanaşı, yenilikçi, mütərəqqi baxışlara əsaslanan və xalqın xoşbəxt gələcəyinə hesablanmış çox mühüm təşəbbüslər irəli sürüb, vacib addımlar atıb: ”Siyasi varisliyin təmin olunması Ulu Öndərin xalqımız qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Belə ki, cənab İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsindən sonra dövlətçilik tariximizdə keyfiyyətcə yeni mərhələ başlandı, yeni nailiyyətlərə imza atıldı, xalqiqtidar birliyi daha da möhkəmləndi”.

YAP Veteranlar Şurasının üzvü, Əməkdar jurnalist Tahir Məmmədov bildirib ki, Heydər Əliyev fenomeni zaman və məkan anlayışlarının fövqündədir. Onun dövlətçilik irsi və parlaq ideyaları hər zaman - bütün dövrlər üçün aktualdır. Ümummilli Liderin siyasi irsi dövlətçilik konsepsiyasıdır.

Şəhid anası Zülfiyyə Səfərova, Vətən Müharibəsi Qəhrəmanı Murad Əflətovun atası İlyas Əflətov, YAP fəalı Əhmədağa Əliyev çıxışlarında Ulu Öndərin uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqil Azərbaycanın tərəqqi yolunda inamla irəlilədiyini bildirib, şanlı Zəfərimizin Heydər Əliyev siyasətinin məntiqi nəticəsi olduğunu vurğulayıblar.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman və təşəkkürnamə, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim edilib.

# İnsan ləyaqət hissini itirəndə...

Aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində Azərbaycanın dünya miqyasında nümunəvi inkişaf modeli formalaşıb. Yenilməz Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 30 il işğal altında olmuş torpaqlarımızı erməni terrorçu dəstələrindən azad etməsi Azərbaycanın gücünə güc qatdı. Artıq bütün dünya Azərbaycanın gücünü, qüdrətini qəbul edir və onun istənilən təklif və ideyalarını müzakirəsiz qəbul edib dəstəkləyir. Söz yox ki, bu gün işğaldan azad edilən əraziləri cənnətə çevirmək, insanların o yerlərdə daha firavan və təhlükəsiz yaşayışının təmin olunması üçün birliyin möhkəmlənməsinə ehtiyac var. Lakin görünən ondan ibarətdir ki, 44 günlük Vətən Müharibəsində təxribatları ilə tanınan, hər fürsətdə hərbi qələbələrə, uğurlu əməliyyatlara kölgə salmağa çalışan müxalif ünsürlər yenə də ənənəvi amplualarında çıxış edirlər. Bu baxımdan əsaslı şəkildə demək olar ki, AXCP, ”Milli Şura” və Müsavat kimi qurumların rəhbərinin vicdanları yoxdur, mənəviyyat və ləyaqət hissindən uzaqdırlar. Əli Kərimli, Tofiq Yaqublu, Arif Hacılı, Cəmil Həsənli və digərləri ancaq xarici maraqlı dairələrin sifarişlərinə uyğun fəaliyyət göstərirlər. Düzdür, xaricdən aldıqları maliyyə yardımları hesabına əyin-başlarını və yaşayış durumlarını dəyişiblər, ancaq düşüncə və davranışları 1988-1990-cı illərdə olduğu kimi qalmaqdadır.

### ”Tofiq Yaqublu ağlını itirib”

Müxalifətin xarici fondlardan maddi və mənəvi cəhətdən asılı olan ünsürləri Azərbaycanın milli maraqlarına qarşı qərəzli mövqe sərgiləyir, dövlətçiliyə qarşı əsassız ittihamlar irəli sürür, xarici maraqlı dairələrin sifarişləri əsasında Bakının mərkəzində icazəsiz aksiyalar keçirməyə cəhdlər göstərirlər. Son günlər isə hansı əqidəyə qulluq etdiyi məlum olmayan Tofiq Yaqublu dövlətçiliyimiz əleyhinə ağlına gələni danışmağa başlayıb. Bu məxluq hər şey haqqında danışır və sayıqlayır. Deyir ki, erməni qardaşlığı güzəştlər üzərində qurulmalıdır. Gah da Azərbaycan dövlətini erməni terrorçu qüvvələrlə müqayisə edir. Sayıqlamalarında insanları dövlətə qarşı itaətsizliyə, qanunlara məhəl qoymamağa çağırır. Bu yerdə Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalının bir qədər əvvəl T.Yaqublu haqqında dediyi əsaslı və məntiqli fikirləri yadıma düşür. F.Ağamalı faktlara istinad etməklə T.Yaqublunun ağlını itirdiyini bildirir: ”Tofiq Yaqublu AXCP sədrinin xüsusi tapşırıqlarını yerinə yetirir və bu cür vicdana sığmayan açıqlamalar verir, sosial şəbəkələrdə ağına-bozuna baxmadan nə gəldi danışır. Bu adam artıq ağlını itirib, özünü idarə edə bilmir, dediyi sözlərin məsuliyyətini də anlamır. Baxmayaraq ki, ölkə Prezidenti ona səhvləri müqabilində hər zaman mərhəmətini göstərib, cinayət əməlinə rəğmən azadlığa, ailəsinə qovuşmasını təmin edib. Yenə də o, artıq özü-özünü idarə edə bilmədiyini göstərməyə başlayıb”.



F.Ağamalı haqlıdır. Doğrudan da, T.Yaqublu ağlını itirib. Ona dəli deyib damğalamaq hələ tez olsa da, görünən ondan ibarətdir ki, ötən il başını divara vurmaqla aldığı travmanın ağır fəsadları bu gün özünü daha açıq şəkildə göstərməkdədir. Ağılı başında olan və özünə azərbaycanlı deyən şəxs ”Zəngəzur dəhlizi” ideyasını ”Azərbaycan dövlətinin avantürası” adlandıra bilərmi? Digər tərəfdən hansı azərbaycanlı Koçaryan, Sarkisyan, Ohanyan kimi əlləri azərbaycanlı uşaqların qanına batmış qatillər kimi revaşist açıqlamalar verər və Qaragöl ətrafında, Ermənistanla şərti sərhəddə Azərbaycan ordusunun yerdəyişməsini ”sülhə zərbə” adlandıra bilər?

### Tofiq Yaqublu ağasız yaşamağa can atarsa, o zaman ac qalar

Sual olunur, nəyə görə T.Yaqublu və ona zəhər verən ağaları Ermənistanın Naxçıvanla sərhəddə iri metallurgiya zavodu tikməsinə etiraz etmirlər? 4 aya yaxın Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda QHT-lərin, ekoloqların, könüllülərin və digər təbəqələrdən olan insanların iştirakı ilə etiraz aksiyası keçirildi, niyə T.Yaqublu bir dəfə ağzını açıb aksiya iştirakçılarına dəstək verdiklərini söymədi? Bir dəfə bu barədə sual vermişdim, yenidən təkrarlamaq məcburiyyətindəyəm, nədən Fransa prezidenti Makron və parlamenti Azərbaycana qarşı qərəzli mövqe sərgiləyib Qarağla bağlı separatçı qətnamə qəbul edərkən T.Yaqublu süni də olsa əsib-çoşub ən azı Q.Zahidin, S.Osmanqızının internet TV-lərində etirazını bildirmədi? Njde Qaregenin abidəsi ucaldılarkən T.Yaqublu niyə narazılığını bildirmədi? Sullar çoxdur, cavabları isə yoxdur. Çünki T.Yaqublu ağılı olmayan və boynundakı ipinin müəyyən Azərbaycana düşmən kəsilən qüvvələrin əlində olan şəxsdir. Düşünmürəm ki, o nə zamansa boynundakı ipdən imtina etsin. Cəsarətə gəlib ağasız yaşamağa can atsa, o zaman ac qalar və dəyəri yüz min manat olan maşınından, bahalı mənzilindən, bağ evindən məhrum oluna bilər. Bu baxımdan, hər zaman T.Yaqublunun sərsəm və böhtan xarakterli fikirləri ilə rastlaşacağıq. Aradabir dövlətçiliyimizə qarşı Koçaryan, Sarkisyansayağı ittihamlar da eşidəcəyik. Hətta müəyyən hallarda evində, küçədə və ya hansısa ofisdə başını divara vurub, özünü ”döydürəcək” də. Beləcə, T.Yaqublu boş və mənasız, həm də tüfeyli həyatını yaşayacaq, əgər belə rüsvayçı həyata yaşamaq demək mümkündürsə.

**İ.ƏLİYEV**

### ”Erməni silahlılarının tərksilah olunması bu günün reallıqlarından irəli gəlir”

“Paşinyan hakimiyyətinin Qarabağdakı erməni silahlıların tərksilah olunacağını bəyan etməsi bu günün reallıqlarından irəli gəlir”. Bunu millət vəkili Azər Badamov ”Səs” qəzetinə açıqlamasında deyib.



Onun sözlərinə görə, Azərbaycan Laçın yolunun Ermənistanla birləşən sərhədində nəzarət keçid məntəqəsini qoymaqla yeni reallıq yaratmışdır: ”Nəzarət keçid məntəqəmiz Ermənistandan Qarabağa silahlıların və silahların daşımasına davam etməsinin qarşısını almışdır. Bu da Qarabağda qalmaqda davam edən erməni silahlıları üçün çətinlik yaratmışdır. Yəni, təminatın və rotasiyanın davamlı olmaması Qarabğda silahlıların qalmasını çətinləşdirmişdir. Bu da Paşinyan hakimiyyətinin məlum bəyanatı səsləndirməyə məcbur etmişdir. Erməni silahlıların Qarabağdan çıxarılması həm də 10 noyabrda imzalanmış üçtərəfli bəyanatın tələbidir. Azərbaycanın qətiyyətli və dəyişilməz mövqeyi Ermənistanı 10 noyabr üçtərəfli bəyanatı icra etdirməsinə məcbur edir. Hesab edirəm ki, növbəti mərhələlərdə Azərbaycan Ermənistan arasındakı danışıqlarda yeni müsbət irəliləyişləri müşahidə edəcəyik”.

**GÜLYANƏ**



# Milli Qurtuluşun memarı

Xalqımızın tarixində elə günlər olmuşdur ki, o Azərbaycanın taleyini dəyişən, onun həyatında böyük əhəmiyyət daşıyan, onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulan böyük zəfər tarixinin başlanğıc günü kimi tarixə əbədi həkk olunmuşdur. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış, Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik, xalqımız üçün əsl qurtuluş tarixi olan bir gün 15 İyun - Milli Qurtuluş Günüdür. Bu tarixi yaradan isə tariximizə böyük xilaskar kimi öz adını qızıl hərflərlə yazan, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Ümummilli lider Heydər Əliyev oldu.

Dinlər tarixini araşdırarkən maraqlı bir məqam diqqəti cəlb edirhər bir peyğəmbər müəyyən xalqların həyatında taleyüklü məqamların olduğu vaxtda tarixi səhnəyə çıxaraq Tanrı müsafiri missiyasını şərəflə yerinə yetirmişdir. Misirlilər qul kimi işlətdikləri yəhudiləri məhv etməyə qərar verəndə Musa peyğəmbər onları Nil çayından keçirərək xilas etmişdir. Qüreyş tayfasnda bütpərəstlik adamları bir-birinə düşmən etdiyi dördə Məhəmməd peyğəmbər böyük xilaskarlıq missiyasını uğurla həyata keçirərək bəşəriyyətə möhtəşəm bir din bəxş etmişdir. Azərbaycan xalqnn taleyində bu nəhəng missiyanı yerinə yetirmək XX əsrin 90-ci illərində Ümummilli lider Heydər Əliyevə nəsib olmuşdur.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında gündəngünə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

90-cı illərdə Azərbaycan böyük təhlükə qarşısında idi-belə ki, Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxili qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, daxildə olan hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələrin bir ildən sonra hakimiyyətdən getməsinə gətirib çıxartdı. Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündəngünə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu öndər xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

Hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün üç mühüm şərt-tarixi şans, milli iradə və liderə malik olması - vacib amildir. Tarixən hər bir xalqın tarixi müəyyən mənada ona rəhbərlik etmiş böyük siyasi liderlərin, parlaq şəxsiyyətlərin çoxşaxəli fəaliyyətində təsəccümünü tapmışdır. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, dünyanın görkəmli dövlət xadimlərindən biri, Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında yalnız insanların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, qurub- yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

1993-cü il iyunun 15-də Vətənin bu ağır dövründə Azərbaycan KP MK-nın birinci katibi (1969-1982) olmuş, daha sonra Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışmış, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi fədakarlıq nümunələri göstərən Heydər Əliyev hakimiyyətə qayıtdı- Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır" - deyən Ümummilli lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Ümummilli lider öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu, Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi, ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndərin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı.

Müstəqilliyi qazanmaq ilkin şərt hesab olunsa da, onu qoruyub inkişaf etdirmək daha vacib məsələdir-bu məhz Ümummilli liderin iradəsi sayəsində reallığa çevrildi, milli dövlətçiliyimizin konsepsiyası yaradıldı, bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Ulu öndər iyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi, iyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdübu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı, dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Mövcud mürəkkəb siyasi şəraitdə dahi şəxsiyyətin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ulu öndərin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi siyasi və hərbi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi-onun müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Öz müstəqilliyinə qovuşan respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı, ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

Böyük imperiyanın yaradılmasının təşəbbüskarı olan slayan xalqlarının başçıları siyasi sövdələşməyə gedərək Belovej razılığına-1991-ci ildə SSRİ-nin ləğv edilməsi barədə RSFSR, Belorusiya və Ukrayna tərəfindən imzalanmış sazişə-imza atdılar. Sazişin mürəkkəbi qurumamış onlar sanki itirdiklərini dərk edib elə burada Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranmasını elan etdilər. Hüquqi baxımdan bu müqavilə etibarsız hesab edilməlidir. Çünki SSRİ Konstitusiyasına görə İttifaqın beynəlxalq hüququn subyektliyini itirməsinə, yəni ləğv edilməsinə yalnız ümumxalq səsverməsi(referendum) vasitəsilə birbaşa xalq qərar verməli idi (hərçənd ki, bir qədər əvvəl xalq bunu etmişdir. Referendumda sovet vətəndaşlarının 74 faizindən çoxu SSRİ-nin qalmasına səs vermişdir). Lakin B. Yeltsin, L. Kravçuk və S. Şuşkeviç Sovet İttifaqının digər subyektlərinin rəyini nəzərə almadan, bununla belə SSRİ Konstitusiyasının normalarını kobud surətdə pozmaqla səlahiyyətləri olmadıqları halda bu qeyri-hüquqi müqaviləni imzaladılar. Onu da qeyd etmək lazımdır ki, bu müqavilənin əsli "itirilmişdir"-heç bir dövlətin arxivində yoxdur-ona görə də bu müqavilənin şərtləri haqqında detallı məlumat yoxdur. Bu müqavilədən yalnız Pribaltika respublikaları yararlana bildi-digər respublikaların müstəqillik arzuları Rusiyanın müqaviməti ilə üzləşdi. Belə bir şəraitdə balanslı siyasət yeritmək, yaranmş şəraitdən maksimum bəhrələnmək qarşda dayanan vacib məsələ idi-məhz Ulu öndər bu məqama zərgər dəqiqliyi ilə yanaşa bilmişdir.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu öndər tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Ümummilli liderin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Ulu öndərin dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Türk dünyasının liderinin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi.

*Ardı Səh. 12*

# Milli Qurtuluşun memarı

**Əvvəli Səh. 11**

Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

Ulu öndər Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlanıldı. Odur ki, Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi. Bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi. Ulu öndərin dühası, qlobal inkişaf meyillərini irəlicədən görmək, öz ölkəsinin dünya birliyində rolunu, yerini və imkanlarını dəqiq müəyyənləşdirmək qabiliyyəti, çox böyük nüfuzu və insanları öz arxasınca aparmaq bacarığı sayəsində müstəqil Azərbaycanın başı üstünü almış təhlükələr aradan qaldırıldı. Qanunsuz silahlı birləşmələr və quldur dəstələri qısa müddətdə ləğv edildi, ölkənin ordusu yaradıldı. Asayiş və qayda - qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunması faktlarına son qoyuldu. Qarabağ müharibəsində atəşkəs əldə edildi. Dövlətçilik yenidən yaradıldı, insanların öz qüvvələrinə inamı özlərinə qaytarıldı. İctimai-siyasi vəziyyətin normallaşdırılması iqtisadiyyatda zəruri dəyişiklikləri həyata keçirməyə imkan verdi.

Ümummilli liderin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri etmiş, onun ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilmişdir. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutmuşdur. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırmış, çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilmişdir. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir. 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan xalqının milli qurtuluş günü-1997-ci ilin 15 iyun günündən bayram elan edilmiş, ona 1998-ci ildən dövlət statusu verilmişdir. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçmiş, ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmişdir. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.

1993-sü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən bəzi silahlı dəstələrin yol verdikləri başıpozuq hərəkətlər, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması planını tam gücü ilə işə salmışdır. İki illik müstəqillik tarixinə baxmayaraq, ölkə təbəddülatlar dalğasından hələ də xilas ola bilməmişdir.

Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyun tarixində dövlətçiliyimizin yox olmaq təhlükəsindən xilas edilməsi üçün əsaslı sütunlar yarandı. Ümummilli lider öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu-Ümummilli Liderin 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışı ilə dövlətimizin müstəqilliyinin qorunub saxlanılması bərqərar oldu. Bu gün hər kəs, istər müstəqil Azərbaycanın vətəndaşları, istərsə də bütün dünyada yaşayan azərbaycanlılar yaxşı bilir ki, Heydər Əliyev şəxsiyyəti müasir Azərbaycanın dövlətçilik tarixində ən parlaq simadır. Azərbaycan xalqının qəlbində əbədiyaşar yerə sahib, hələ sağlığında Ümummilli lider statusunu qazanan, Ulu Öndər kimi milyonların sevimlisi olan Heydər Əliyev müasir Azərbaycan dövlətinin xilaskarı, memarı və qurucusu kimi tarixə düşmüşdür. Bəli, hər kəsin bildiyi və qəbul etdiyi, bəzilərinin istəməsə belə qəbul etməyə məcbur olduğu yenilməz bir həqiqət var ki, bu, Ulu öndərin Azərbaycan xalqının xilaskarı, onun müəyyən etdiyi ideoloji xəttin müasir dövlətimizin parlaq gələcəyinin təminatçısı olmasıdır. Azərbaycan tarixində silinməz izlər qoymuş dahi şəxsiyyətin bizlərə bəxş etdiyi saysız-hesabsız tarixi günlər vardır ki, xalqımız bu gün həmin tarixləri əsl bayram kimi qeyd edərək dahi şəxsiyyəti böyük hörmət və ehtiramla anır.

Ümummilli liderin hakimiyyətə qayıtmasından əvvəl ölkədəki vəziyyəti həmin hadisələrin şahidi olanlar yaxşı xatırlayırlar- ölkədəki kriminal vəziyyət son həddə çatmışdır. Qərbdə qiyamçı S.Hüseynovun hərbi dəstələri döyüş bölgəsini tərk edərək hakimiyyəti ələ keçirmək üçün Bakıya doğru hərəkət edirdi. Cənubda separatçı Ə.Hümbətov praktiki olaraq bir neçə rayonun inzibati binasını güc yolu ilə ələ keçirib mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırırdı. Şimalda Azərbaycan vətəndaşı olan milli azlıqlara məxsus bəzi etnik qruplar arasında da kənar qüvvələrin təsiri ilə inamsızlıq və etimadsızlıq toxumu səpilirdi ki, bunun da separatçılığa çevrilmə ehtimalı özünü büruzə verməyə başlamışdır. Hətta məişət səviyyəsində kriminal vəziyyət o həddə çatmışdı ki, paytaxt Bakı küçələrində heç kimə tabe olmayan əli silahlı qruplar və fərdlər istədikləri adamı cəzalandıra bilirdilər. Gənc nəsil bunu bilməsə də, o zamankı vəziyyəti gündəlik həyatında hiss edən hər bir şəxs təsdiqləyə bilər ki, hər hansı adi vətəndaşın evdən çıxaraq sağ-salamat qayıtmasına əminlik yox idi. Həmin dövrdə Azərbaycan sadəcə daxili yox, xarici siyasət və təhlükəsizlik problemləri ilə qarşılaşmışdır. Ermənistan silahlı qüvvələrinin yeni-yeni Azərbaycan ərazilərini ələ keçirməsinə baxmayaraq, ABŞ Konqresi Dağlıq Qarabağ münaqişəsini əsas gətirərək Azadlığın Dəstəklənməsi Aktına 907-ci düzəlişi edərək Azərbaycana Amerikanın birbaşa yardımını qadağan etmişdir. Maraqlıdır ki, 907-ci düzəlişdə məhz Azərbaycan işğalçı tərəf kimi göstərilirdi. Azərbaycanın dövlət müstəqilliyinin təməlini təşkil edən enerji məsələsində dünyanın enerji nəhəngləri ilə aparılan danışıqların nəticəsiz qalması iqtisadiyyatın inkişaf etdirilməsi perspektivinidalana dirəmişdir. Hakimiyyətin məsuliyyətsiz bəyanatlarının nəticəsi olaraq qonşu ölkələrlə münasibətlər gərginləşmişdir. Gürcüstanda Z.Qamsaxurdiya faktiki olaraq azərbaycanlıların etnik təmizləmə siyasətini yürüdürdü ki, Ermənistan və Dağlıq Qarabağdan olan qaçqınlara əlavə olaraq ölkəmizə Gürcüstandan azərbaycanlıların böyük axını başlamışdır. Cənubi Azərbaycan məsələsi ilə bağlı rəhbərliyin məsuliyyətsiz bəyanatlarının nəticəsi olaraq İran ilə münasibətlər son dərəcə gərginləşmiş və İranın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Ermənistanın xeyrinə dəyişmişdir. Hakimiyyətin o illərdə Azərbaycanın siyasi reallıqlarını diqqətə almadan Çini narahat edən bəyanatlar verməsi xarici siyasətdə ölkənin problemlərlə qarşılaşmasına səbəb olmuşdur. Bütün bunlara əlavə olaraq erməni lobbisinin mütəşəkkil fəaliyyəti nəticəsində Azərbaycan informasiya müharibəsində də təcrid olunmuş vəziyyətdə qalmışdır.

Ölkənin müstəqilliyinin itirilməsi ilə üzləşdiyi bir şəraitdə hakimiyyət xalqın israrlı tələbləri ilə, çıxış yolunu yeganə xilaskar kimi Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etməkdə gördü. Xalqın təkidli tələbi ilə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldi. Dövlətçiliyin xilas edildiyi gün olan 1993-cü il iyunun 15-ni - Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıtdığı günü xalqımız müasir tariximizin qürur və şərəf səhifəsi - Milli Qurtuluş Günü kimi qəbul etdi.

Ümummilli liderin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında, eləcə də cəmiyyətin hər bir sahəsində yeni bir dönüş yarandı. Ulu Öndərin siyası uzaqgörənliyi nəticəsində ictimai-siyasi həyatda sabitliyin əldə edilməsi ilə yanaşı, ölkə iqtisadiyyatının bərpası istiqamətində fəaliyyətlər sürətləndi. Ulu öndərin hakimiyyətə qayıtmasından sonra ölkəmizdə milli barış və inkişaf dövrü başlandı-qısa bir müddətdə daxili ictimai-siyasi vəziyyəti nəzarət altına alındı, sabitlik təmin edildi, Dağlıq Qarabağ münaqişəsində atəşkəs müqaviləsi imzalandı, ölkə daxilində separatçılıq meyllərinin qarşısı alındı, iqtisadi problemlər əhəmiyyətli dərəcədə həll edildi, iqtisadi sahəni tənzimləyən müsbət qanunlar qəbul edildi, o cümlədən xarici sərmayənin ölkəyə gəlməsi məqsədilə qanunvericilik sahəsi təkmilləşdirildi, vətəndaşların sosial-iqtisadi vəziyyətində artım hiss edilməyə başlandı, ordu quruculuğunda mühüm addımlar atıldı, ölkəmizdə enerji sahəsində də yüksək nailiyyətlərin əldə olunmasına başlanıldı-”Əsrin Müqaviləsi” imzalandı və bu kontraktla Azərbaycanın sonrakı illər iqtisadi inkişafının əsası qoyuldu, uğurlu enerji siyasəti nəticəsində xarici neft şirkətləri ”Əsrin Müqaviləsi” çərçivəsində Azərbaycan iqtisadiyyatına 9 milyard dollar həcmində vəsait yatırdılar,

İran və Rusiyanın ciddi etirazlarına rəğmən ABŞ şirkətlərinin Xəzər hövzəsinə gətirdi və yataqların birgə işlənməsi başlandı, ”Əsrin Müqaviləsi” çərçivəsində istehsal edilən xam neftin dünya bazarlarına çıxarılması üçün Bakı-Tiflis-Ceyhan neft boru kəmərinin inşa edilməsi məsələsi uğurla həll edildi.Heydər Əliyevin hakimiyyətə qayıtması ilə Azərbaycanın xarici siyasətində də böyük uğurlara imza atıldı-ikitərəfli və çoxtərəfli görüşlər, intensiv xarici səfərlər nəticəsində Azərbaycan informasiya sahəsində təcriddən çıxmağa nail oldu, dünya ictimaiyyəti Ermənistanı bir işğalçı dövlət kimi tanıdı, sonrakı illərdə Heydər Əliyev Ermənistanın adını bir sıra beynəlxalq sənədlərə işğalçı dövlət kimi salmağa müvəffəq oldu. XX əsr Azərbaycan xalqının tarixində xüsusi bir mərhələ təşkil edir-bu əsrdə Azərbaycan xalqı iki dəfə - 1918-ci il mayın 28-də və 1991-ci il oktyabrın 18-də imperiya əsarətinə qarşı apardığı mübarizə nəticəsində öz milli azadlığına, dövlət müstəqilliyinə nail olmuşdur. İlk dövlət müstəqilliyini bir sıra tarixi, ictimai-siyasi səbəblərdən, milli dövlətçilik ənənələrinin formalaşmamasından, o cümlədən dünyanın yenidən bölüşdürülməsi ilə bağlı dünyanın aparıcı dövlətlərinin yürütdüyü siyasətin və bolşevik işğalının nəticəsində qoruyub saxlamaq mümkün olmamışdır- bütün müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan xarici və daxili düşmənlərə qarşı mübarizələrlə dolu 23 aylıq mövcudluqdan sonra öz dövlət müstəqilliyini itirmişdir. Yetmiş ildən artıq Sovet rejimi şəraitində yaşayan Azərbaycan itirilmiş azadlığını qaytarmaq, dövlət müstəqilliyini bərpa etmək amalı ilə yaşamış, uzun illər boyu imperiya idarəçiliyinin siyasi və ideoloji təzyiqinə məruz qalmasına baxmayaraq, öz dilini və dinini qorumuş, milli mədəniyyətini inkişaf etdirmiş, müttəfiq respublika şəklində də olsa öz dövlətçiliyini saxlamışdır. Umummilli liderın ilk hakimiyyəti illərində bu proseslər daha geniş vüsət almış, ölkə iqtisadiyyatının möhkəmləndirilməsi, dövlət quruculuğu, mədəni və mənəvi yüksəliş sahəsində mühüm işlər görülmüşdür. Bu dövrdə milli gəlir 2,5 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatında ümumi məhsul 2.7 dəfə artmış, iqtisadiyyatın inkişaf etdirilməsinə əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox əsaslı vəsait qoyulmuş, 250 iri zavod və fabrik istifadəyə verilmişdir. Milli kadr korpusu yaradılmış, dövlət idarəçiliyi təsisatları möhkəmləndirilmiş, elm, səhiyyə, təhsil, mədəniyyət və incəsənət sahələrində ciddi uğurlar qazanılmış, minlərlə azərbaycanlı gənc keçmiş Sovet İttifaqının aparıcı elm və tədris ocaqlarına göndərilmiş və yeni istehsal sahələri ilə bağlı ixtisaslara yiyələnmişdir. Bakı həmin dövrdə dünya miqyasında tanınan mədəniyyət mərkəzinə çevrilmiş, azərbaycanlılar özünəməxsus tarixi, mədəniyyəti, ənənələri olan bir millət kimi tanınmışlar.

70-ci illərdə Azərbaycanda sözün həqiqi mənasında böyük quruculuq və yaradıcılıq epoxası, həyatın bütün sahələrində güclü inkişaf və tərəqqi dövrü yaşanmışdır-keçmiş SSRİ məkanında yalnız iki respublika - Rusiya Federasiyası və Azərbaycan keçmiş ittifaq büdcəsindən heç bir dotasiya almadan yaşayırdı. Bu isə Azərbaycanın siyasi müstəqilliyə aparan yolda ən mühüm və həlledici mərhələ olan iqtisadi müstəqilliyə tam nail olduğunu göstərirdi. Müstəqil daxili siyasət yeridilməsi nəticəsində Azərbaycanın siyasi, iqtisadi və milli-mədəni inkişafı üçün son dərəcə böyük işlər görülmüş, ən başlıcası isə xalqın milli mənlik şüurunun inkişif etdirilməsi, tarixi ənənələrinin qorunması, dilinin, mədəniyyətinin, ədəbiyyatının tərəqqisi, milli özünəməxsusluqlarının, adət-ənənələrinin yaşadılması istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdur. Bu illərdə Azərbaycanda milli özünüdərk prosesi xüsusilə qüvvətlənmişdir-bu proses ölkə rəhbəri tərəfindən həssaslıq və uzaqgörənliklə idarə olunur və tənzimlənirdi. Keçmiş SSRİ-nin bir çox respublikalarında aramsız ”dissedent ovu” aparıldığı halda, Azərbaycanda yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdır. Yaradılan güclü iqtisadiyyat və işgüzar kadr potensialı əhalinin rifah halı daha da yaxşılaşdırmışdır-bunlar isə yaxın gələcəkdə Azərbaycanda müstəqil dövlət qurulması üçün əsaslı zəminə çevrilmişdir.

*(Ardı sabahkı sayımızda)*

***Yaşar Əhmədov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin ”Humanitar fənlər” kafedrasının dosenti***

# Müəllimlərə bahalı hədiyyələr verilməlidir?



**Son zamanlar müəllimlər təkcə "Müəllimlər Günü"ndə, yaxud 8 Martda deyil, doğum günündə, Novruz, Yeni İl və şagirdlərin Əlifba bayramında da valideynlər tərəfindən hədiyyələrə boğulurlar. Belə ki, bir sıra valideyn qrupu bayram ərəfəsi digər valideynləri də buna təşviq edərək pul yığıb hədiyyə almasını istəyirlər. Müxtəlif siniflərarası valideynlərdən ibarət qruplar pul yığmaq və müəllimə ən bahalı hədiyyə almaq üçün yarışırlar.**







### Yaxşı, bəs bu müəllim-valideyn və şagird münasibətinə necə təsir edir? Ümumiyyətlə, bu hallar nə dərəcədə doğrudur?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

İlk olaraq xatırladaq ki, ötən gün Xırdalan şəhəri 1 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi ilə bağlı rüşvət iddiaları gündəm olub. Belə ki, bu barədə görüntülər sosial şəbəkələrdə paylaşılıb. Görüntülərdə sözügedən məktəbin ibtidai sinif müəlliminə 4-cü siniflərin məzun günündə valideyn tərəfindən qızıl sırğa və üzük hədiyyə edilərək, taxıldığı əks olunub. Bu paylaşım sosial şəbəkə izləyiciləri tərəfindən sərt tənqidə uğrayıb. Müəllimlərin bu kimi "şirinlik" adı altında rüşvət almaları iddia edilib. Daha sonra isə Yaqut Ağamalıyevanın son davranışı ilə bağlı araşdırma aparılıb. Bu barədə Abşeron-Xızı Regional Təhsil İdarəsindən məlumat verilib. "Xırdalan şəhəri 1 nömrəli tam orta məktəbində 4-cü siniflərin buraxılışı ilə əlaqədar keçirilmiş tədbirdə çəkilmiş video görüntülərlə bağlı bildiririk ki, Abşeron-Xızı Regional Təhsil İdarəsi olaraq sözügedən məktəbin ibtidai sinif müəllimi Yaqut Ağamalıyevanın müəllim nüfuzuna xələl gətirən davranışını qınayır və belə halların yolverilməz olduğunu bir daha vurğulayırıq. Məsələ ilə əlaqədar İdarə tərəfindən araşdırma aparıldığını və ictimaiyyətə əlavə məlumat veriləcəyini bildiririk", - idarədən qeyd edilib.

İkinci belə bir hal isə bundan sonra yaşanıb. Belə ki, daha bir məktəbdə rüşvət iddiaları gündəm olub. Bununla bağlı görüntülər də sosial şəbəkələrdə yayılıb. Belə ki, Xırdalan şəhəri 9 saylı məktəbin birinci sinif şagirdlərinin valideynləri "Əlifba bayramı"nda müəllimə qızıl qolbaq hədiyyə ediblər. Bu paylaşım sosial şəbəkə izləyiciləri tərəfindən sərt tənqidə uğrayıb. Müəllimlərin bu kimi "şirinlik" adı altında rüşvət almaları iddia edilib.

### Müəllimə hədiyyə almaq olarmı?

Türkiyədə mütəxəssislər qeyd edir ki, nə qədər müəllim-şagird münasibəti davam edir, şagirdin və ya valideynin müəllimə hədiyyə alması düzgün deyil. Onlara görə, müəllimlərin bu hədiyyələri alması yolverilməzdir. Belə ki, hədiyyə alan valideynlə almayan valideynlər arasında ixtilaf yaranır, valideyn-övlad münasibətləri, müəllim-şagird münasibətləri korlanır. Türk mütəxəssislərə görə, nə qədər ki, uşaq məktəbdə şagirddir, həm valideyndən, həm də uşaqdan hədiyyə almaq təhsilin keyfiyyətinə mənfi təsir edir, onun təməlini sarsıdır.

### Müəllim-valideyn münasibəti necə olmalıdır?

Uşaq təhsili komanda işidir. Bu komandaya müəllim, valideynlər, məktəb rəhbərliyi, uşağın dostları və onların valideynləri daxildir. Bu əlaqələr uşağın cəmiyyətə, həyata və sağlam şəkildə hazırlanmasına kömək etmək üçün mövcuddur.

### Müəllimlərin bəzi valideynlərlə xüsusi dostluq münasibəti yaratmasına səbəb nədir?

Müəllim-valideyn münasibəti məqsədyönlü olmalıdır. Yəni şagirdin yaxşı təhsil alaraq inkişaf etməsinə kömək edəcək şəkildə olmalıdır. Bunun üçün həm valideynlər, həm də müəllimlər bir-birlərinə açıq olmalı və bu məqsədlə əlaqələr qurmalıdırlar. Bundan başqa hər hansı niyyət və davranış uşağın tərbiyəsinə mənfi təsir göstərir. Müəllim bütün valideynlərlə eyni məsafədə dayanmalı və balanslı olmalıdır. Yəni müəllim hər bir şagirdin ədalətli inkişafı üçün məsuliyyət daşımalı və ona uyğun əlaqələr qurmalıdır. Bu əlaqə vaxt, səy, qayğı, empatiya, sevgi, məna, anlayış kimi canlı dəyərlər çərçivəsində olmalıdır. Din, dil, irq və ya iqtisadi vəziyyətdə olan hər hansı fərq tələbələr arasında imtiyaz yaratmamalıdır.

Ədalətli olmaq üçün müəllimlər diqqətli olmalıdırlar. Müəllim və valideyn münasibətləri sevgi və hörmət üzərində qurulmalı, onların niyyəti uşaqların inkişafı olmalıdır. Bu, təkcə öz övladlarını, ailələrini deyil, bütün cəmiyyəti, bəşəriyyəti əhatə edən bir niyyət olmalıdır.

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Təhsil sistemimizdə bir çox problemlər var ki, biz bunları dönə-dönə qabardır, tənqid edir və ictimai qınağa tuş edirik. Amma bu düzəlmir. Onlardan biri də müəllimləri və digər texniki işçiləri mükafatlandırmaq, onlara bəxşiş və hədiyyə verməkdir. Bu məsələ bütün dünyada artıq həll olunub. Hətta bizim özəl məktəblərdə də problem həllini tapıb. Belə ki, bir sıra özəl məktəblərdə müəllimə o qədər yaxşı məvacib verilir ki, o kiminsə əlinə baxmağa ehtiyac duymur. Bu baxımdan, Azərbaycanda son bir neçə hadisə zamanı biz müəllimlərə qızıl-zinət əşyaları hədiyyə verilməsini gördük. Üstəlik bunu çəkib paylaşırlar. Bu məsələ hamını düşündürür və bir qədər ehtiyatlı olmaq lazımdır.



Burada qeyri-qanuni nəsə olduğunu düşünmürəm. 4-cü sinif şagirdlərinin 5-10 manat pul yığıb müəllimə kiçik bir qızıl hədiyyəsi bağışlamasında qəbahətli heç nə yoxdur. Sadəcə, bunu çəkib nümayiş etdirməyə və hamı tərəfindən dəb halını almasına etiraz edirik. Çünki bizim məktəblərdə valideynlər tərəfindən pul yığıb müəllimə və direktora hədiyyə alınması halları var. Bununla bağlı hüquq-mühafizə orqanları kəskin addımlar atıb, cəmiyyət də kəskin qınayır və biz ziyalılar da etirazımızı bildiririk. Bir daha təkrar edirəm ki, müəllimlərə o qədər layiqli məvacib verməliyik ki, onlar kiminsə əlinə baxmasınlar".



**Təhsil eksperti Kamran Əsədov:** "Son üç il ərzində Azərbaycan təhsilində ciddi geriləmələr müşahidə olunur. Təhsilin idarə olunması, qiymətləndirilməsi, müəllim-şagird və məktəb-valideyn münasibətlərində ciddi problemlər görürük. Azərbaycan təhsil sistemində ən ciddi problem kimi son dövrlər pul və qiymətli zinət əşyaları tələbetmə məsələsi var. Məktəblərdəki rüşvət hallarına gəldikdə isə, təbii ki, ümumi müəllim adı üçün və müəllimin etik davranış qaydaları üçün bu, xoşgəlməz mənzərədir.

Çox təəssüf ki, biz bu gün valideyn komitələri adı altında "WhatsApp" qruplarında fəaliyyət göstərən birliklərdən xəbərdarıq. Onlar bəzən müəllimlə özünü yaxşı etmək üçün onun xəbəri olmadan valideynlərdən pul yığırlar. Bu tipli vəziyyəti yaradan valideynlərdir. Heç bir müəllim tələb etməz ki, "Mənə qızıl alın". Təbii ki, müəllimlər arasında öz vəzifə-öhdəliklərini yerinə yetirməyənlər, öz repetitor hazırlığına uşaqlar gəlməyəndə onlara psixoloji təzyiq göstərənlər də var. Amma bu iki fakt onu göstərir ki, valideynlər övladlarına 4 il dərs keçən müəllimə bir formada təşəkkür etməyi planlaşdırıblar. Amma bu, xoş olmayan formatda baş tutub. Biz bilirik ki, burada valideyn təşəbbüsü var. Bu təşəkkür ictimai narahatlığa gətirib çıxarır və bu tipli hadisələrə yol verilməsin. Çünki müəllim nüfuzu kəskin şəkildə aşağı düşür.

Bu gün biz müəllim adını qorumaqda maraqlıyıq və yenə də bu gün cəmiyyətin haqlı olaraq təhsilə bir narazılığı var. Çünki son 3 il ərzində təhsil sistemində ədalətli və obyektiv həyata keçirilmir, Elm və Təhsil Nazirliyi milyonlarla vəsaiti qrant olaraq öz yaxınlarına və dostlarına hədiyyə edir, təhsilin keyfiyyəti istiqamətində heç bir addım atılmır, amma dövlət büdcəsindən milyonlarla vəsait xərclənir.

Mən düşünürəm ki, valideynlərin müəllimi təbrik etməsində bir qəbahət yoxdur. Amma istisna hal odur ki, heç kim zorla valideyndən nə isə tələb etməsin.

Bütün Azərbaycan müəllimi ən yüksək imtiyaza və təminatlara layiq olan bir çalışan, bizim hər birimizi öyrədəndir. Bütün peşələr müqəddəsdir, amma biz burada müəllimi xüsusi qeyd etməliyik. Bu gün müəllimlərin yükü çox ağırdır. Biz evdə uşaqlarla işləməyin nə qədər çətin olduğunu bilirik. Biz bilirik ki, valideynlər belə məsələlərdə özləri təşəbbüs edirlər. Burada müəllimi günahkar çıxarmaq etik və doğru deyil. İki videoda görünür ki, müəllim boynunu büküb dayanıb. Bu, yaxşı hal deyil və müəllim ələ baxmamalıdır".

***Ayşən Vəli***

ARAŞDIRMA



## "Bakcell"in dəstəyi ilə keçirilmiş velosiped yarışının ən sürətliləri bəlli oldu

Bakcell şirkətinin dəstəyi ilə "Əziz Şuşa" beynəlxalq velosiped yarışı baş tutub. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş yarışda dünyanın 14 ölkəsindən 100-dən çox idmançı mübarizə aparıb. Əsl sürət bayramına çevrilmiş bu yarış Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Velosiped Federasiyasının birgə təşkilatçılığı ilə baş tutub.

Qeyd edək ki, "Əziz Şuşa" beynəlxalq velosiped yarışı iyunun 7-də Bakıda start götürüb və 11 iyun tarixində Şuşa şəhərində yekunlaşıb. Hal-hazırda Bakcell şirkəti"Bakcell ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir. Xatırladaq ki, şirkət "NEQSOL Holding"in tərkibinə daxildir.

# Satqınlıq və siyasi şou reallığı

## Azərbaycan polisinə iftira atan Tofiq Yaqublunun daha əvvəlki xəyanətləri də unudulmamalıdır!



Son bir neçə gündür ki, sosial şəbəkələrdə "Milli Şura" adlı ölü qurumun üzvü, müsavatçı Tofiq Yaqublunun sözdə "siyasi dissident" adı altında Fransada yer tapan Qənimət Zahidin "verilişində" Azərbaycan polisinə qarşı əsassız ittihamları yer almaqdadır. Söz yox ki, işi-gücü ətrafa yalanlar və böhtanlar sırımağa sərf olunan Tofiq Yaqublu bu vasitələrlə Qərbdəki ağalarından aldığı sifarişləri icra edir. Belə bir vəziyyətdə isə Qənimət Zahid də necə deyərlər, ona ortaqlıq edir. Azərbaycan əleyhinə fəaliyyət göstərən Avropa təşkilatlarının əmrlərini yerinə yetirmək bələlərinə xoşdur. Onların məqsədləri də bəllidir: təki Azərbaycan düşmənləri sevinsinlər...

### 44 günlük müharibə digər güc strukturları kimi polislərimiz də ön cəbhədə canlarını Vətən uğrunda qurban verdilər!

Lakin yuxarıda da qeyd edildiyi kimi, bu adamların xəmirləri xainlik üzərində qurulub və düzələn də deyillər. 44 günlük müharibə digər güc strukturları kimi polislərimiz də ön cəbhədə canlarını Vətən uğrunda qurban verdilər və bunun müqabilində Azərbaycan polisinə qarşı yersiz ittihamlar yağdırmaq, yumşaq desək, siyasi həyasızlıqdır. Yeri gəlmişkən, bu həmin Tofiq Yaqubludur ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsi barədə dedikləri hər kəsi hiddətləndirmişdi. Bir sözlə, bütün bunlar təkcə siyasi hədəfsizlik nümunəsi deyil, bu, həm də anti-azərbaycançılıq yanaşmasıdır. Daha dəqiq ifadə etsək, Tofiq Yaqublunun xəstə zehniyyətə əsaslanan fikirləri Azərbaycana düşmənçəsinə baxışdan başqa bir şey deyil!

### Müzəffər Ali Baş Komandanın gecə-gündüzlü zəhmətini yerə vurmağa, gözdən salmağa cəhd edən "adamdan" bu xalq, dövlət nə gözləyə bilər?

Bu qədər şəhidin, qələbədə əziyyəti olmuş bu qədər insanın zəhmətini, qanını yerə vuran, qələbəni hansısa ölkənin adına yazan, Müzəffər Ali Baş Komandanın gecə-gündüzlü zəhmətini yerə vurmağa, gözdən salmağa cəhd edən "adamdan" bu xalq, dövlət nə gözləyə bilər? Axı bu "insan" necə azərbaycanlı ola bilər?

Bir "şəxs" ki, Azərbaycanın qələbəsini düşmənlərimiz qədər həzm edə bilmirsə, Qarabağın azad edilməsini gözü götürmürsə, buna başqa hansı adı vermək olar?

İndinin özündə də Yaqubluya sual etməyin yeridir: hazırda Azərbaycan polisinə iftira atırsınız. Bu iftiranın dilinizə gətirilməsindən heçmi utanmırsınız? Hə, əlbəttə, utanmırsınız, çünki gerçək insanda utanan-qızaran sifət olmalıdır. Simasızlarda isə nə sifət olur, nə də...

### Xəstə zehniyyətin təzahürü

Bəs, siz Qarabağın azad edilməsini istəmirdiniz? Azərbaycan bu torpaqları azad edib, siz buna sevinmirsiniz? Yəni bunların bu xəstə zehniyyətinin dəyişmədiyini gördükcə adam həqiqətən dəhşətə gəlir, çünki bu gün söhbət təkcə torpaqların azad olunmasından getmir, söhbət ümumilikdə adıçəkilən fərdin "kim" olmasını açıq-aydın ortaya qoyur.

Bunlar anlamırlar ki, başqa bir mövzuda fikir bildirmək olar, hansısa problemlə, nöqsanla bağlı danışmaq da demokratik cəmiyyətin göstəricisidir. Amma Azərbaycanın mühafizəsində gecə-gündüz keşik çəkən, sabitliyi təmin edən, vətəndaşları qoruyan polisə qarşı həqarətlə çıxış etmək düşmənçilikdir! Necə ki, bundan əvvəl də Qarabağın azad olunması barədə bu cür fikirlər bildirmək xəstə zehniyyətin təzahürüdür. Təsəvvür edin ki, torpaqların azad olunmasına sevinməyənlər ən çirkin vasitələrə də əl atmağa hazırdırlar.

### Dünyada 21-ci əsrin qlobal inkişafının 3-cü onilliyi gedir və küçə müxalifəti hələ də ötən əsrin 90-cı illərinin ab-havasında çürüməyə davam edir...

Bəli, bu, biabırçılıqdır, bu, sadəcə yanlış zehniyyətin ortaya qoyduğu bir düşüncə tərzi deyil, bu, düşməncəsinə öz dövlətinin mövcudluğuna, həm də gələcəyinə səhv siyasi baxışlarla edilən yanaşmadır. Təbii ki, bu da olduqca təhlükəlidir!

Tofiq Yaqublu özünü müxalifətçi adlandırır, amma bu cür yanaşmaya müxalifətçilik deyilməz, buna başqa ad verilməlidir, çünki bu, müxalifətçilik yanaşması ola bilməz.

Ona görə də növbəti suallar yaranır: düşünün ki, hakimiyyətdə sizin kimilər olsaydı, bu torpaqların bir qarışı azad edilə bilərdimi? Prezident İlham Əliyevin bu tarixi dövrdə Azərbaycan xalqı üçün etdiyini görməzdən gəlmək, xalqın dəstəklədiyi iqtidarın ən mühüm qurumlarından birini - DİN-i hədəfə almaq ucuzluqdur. Bu, Azərbaycana ən qatı düşməncəsinə baxışdan başqa bir şey deyil. Ona görə də bu kimi ucuz düşüncə sahibləri bir də götür-qoy etməlidirlər. Hərçənd buna da inam yoxdur. Çünki belə yanaşmalar artıq məğlubiyyətə düçar olub. Dünyada 21-ci əsrin qlobal inkişafının 3-cü onilliyi gedir və küçə müxalifəti hələ də ötən əsrin 90-cı illərinin ab-havasında çürüməyə davam edir-Tofiq Yaqublunun simasızlığı, satqınlığı və siyasi şou reallığı fonunda...

***Afət Tahirqızı***

# "İran Ermənistana kömək edib və kömək etməkdə davam edir"

"İranın bizə göstərdiyi qərəzli münasibət onun Azərbaycanın müstəqilliyinə qarşı olmasından irəli gəlib. İranın Azərbaycana münasibətdə yeritdiyi qeyri-dost siyasət keçən əsrin 90-cı illərinin əvvəllərindən, Azərbaycanın müstəqilliyini elan etməsindən sonra aydın şəkildə görünməyə başladı. Bunun da birinci səbəbi o idi ki, İran Azərbaycanın müstəqilliyini istəmirdi. Çünki o, İranda yaşayan milyonlarla azərbaycanlının şimaldakı qardaşlarının nümunəsindən ruhlanaraq müstəqillik uğrunda hərəkata başlamasından çəkinirdi". Bunu "Alyans" strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında deyib.



Onun sözlərinə görə, belə hallar İranın tarixində bu bir neçə dəfə olub: "Bu səbəbdən keçən əsrin 90-cı illərindən başlayaraq İran Ermənistana daim kömək edib və kömək etməkdə davam edir. Ermənilər də açıq şəkildə deyirlər ki, Ermənistanın ən çətin dövründə İran bizə dayaq oldu, İranın yardımı bizim üçün nəfəslik oldu. Din qardaşlarımız ikinci Qarabağ müharibəsindən sonrakı fəallıqlarını nədənsə ərazilərimizin 20 faizi işğal olunanda, ermənilər məscidləri darmadağın edəndə, dinimizi təhqir edəndə nümayiş etdirmək ehtiyacı hiss etmədilər".

A.Səmədov onu da bildirdi ki, Ermənistanda ABŞ-ın nəhəng, dünyada ikinci böyük səfirliyi açılanda və orada eyni zamanda yüzlərlə dəniz piyadası yerləşdiriləndə də İranın etirazını eşidən olmadı: "Elə son vaxtlar Avropa İttifaqının müşahidə missiyası Ermənistana gələndə də, fransız jandarmı, alman polisi həmin missiyada iştirak edəndə də İran elə bir etiraz səsini qaldırmadı. Ancaq nədənsə Zəngəzur dəhlizinə fasiləsiz olaraq etiraz edir və tez-tez bəyan edir ki, İran Ermənistanın təhlükəsizliyinin qarantıdır. Çox təəssüf ki, İranın dövlət maraqları Azərbaycan dövlətinin maraqları ilə üst-üstə düşmür. Burada da təqsir Azərbaycan tərəfdə deyil. 30 il ərazilərimiz işğal altında oldu və biz özünə "böyük dövlət" deyən İrandan heç bir ciddi addım görmədik. İndi İran bizə kiminlə əməkdaşlıq edib, kiminlə etməmək barədə məsləhətlər vermək istəyir. Təbiidir, İran çox istərdi ki, Ermənistanla sərhədi 46 km yox, 300-400 kilometr olsun. Necə ki, 30 il Azərbaycan əraziləri işğalda olduğu zaman İranın Ermənistanla sərhədi də yüz kilometrlərlə ölçülürdü. Bu sərhədlərdən narkotik, silah ticarəti və digər məqsədlər üçün İran gen-bol istifadə edirdi. İndi istifadə imkanları azalıb. O kanallar bağlanıb və təbiidir ki, bu da İranın xoşuna gəlmir. Ona görə biz nə onun Zəngəzur dəhlizinə qarşı kəsin çıxışlarına təəccüblə yanaşmalıyıq, nə İranın Qafanda konsulluq açması bizə qəribə görünməlidir, nə də bu müsəlman dövlətinin islam dininə düşmən olan Ermənistanın təhlükəsizliyinin qarantı olduğunu bəyan etməsi bizi təəccübləndirməlidir. Günümüzün reallığı budur və bu reallığı dəyişdirmək üçün Azərbaycan bundan sonra da öz müttəfiqləri və yaxın dostları ilə ən düzgün addımları atmaqda davam edəcək".

***GÜLYANƏ***



**Elçin Bayramlı**

# "Azad seks" davası milli təhlükəsizlik kontekstində

Son vaxtlar cəmiyyətimizdə zorlamalar, qadın alveri, boşanmalar, həyat yoldaşına xəyanət halları sürətlə artır. Mənəvi-əxlaqı deqradasiya pik həddinə yaxınlaşır. Maddi dəyərlər mənəvi dəyərlərin önünə keçib. Bəs bu tendensiya kimlərdən, nələrdən qaynaqlanır?

Hamıya aydındır ki, burda ictimai, kütləvi təbliğatın böyük rolu var. Bəzi media orqanları və sosial şəbəkə qrupları cəmiyyətin bütün mənəvi-əxlaqı ehkamlarını məhv etməyi qarşılarına məqsəd qoyublar.

Alt-şüurun dəyişdirilməsinə hesablanmış materiallarda qadın azadlığı, gender bərabərliyi adı altında durmadan fahişəlik, boşanmalar, nikahdankənar cinsi əlaqələr təbliğ olunur, həyat yoldaşına xəyanət etməyin yolları peşəkarcasına öyrədilir.

Bunların dediyindən belə çıxır ki, bizim cəmiyyətdə bəzi heyvanlarda olduğu kimi azad seksin olmaması cəmiyyətin inkişafına maneə törədirmiş. Buna görə də, yetkinlik yaşına çatmamış qızlara və oğlanlara cinsi əlaqənin Qərbdə daha çox dəbdə olan formalarını praktiki öyrətmək lazım imiş.

Adamlar, bəlkə haqlıdırlar? Gəlin, əvvəlcə insan cəmiyyətində, sonra isə heyvanlar aləmində analoji vəziyyəti qiymətləndirməyə çalışaq, görək arqumentləri nə dərəcədə əsaslıdır.

Baxın Yaponiyaya, bunlar öz milli mədəniyyətlərini, mənəvi dəyərlərini konservativcəsinə qoruyub saxladıqlarından dünyada ən geridə qalmış ölkəyə çevriliblər. Amma Afrikadakı bəzi qəbilələrdə toyuqlarda olduğu kimi, azad seks var deyə mədəni, elmi, texnoloji cəhətdən ən inkişaf etmiş cəmiyyət və dövlət yaradıblar.

Guya bu ölkədə fahişələrin bədənlərini satmasına əngəlmi var? Biz tolerant cəmiyyətik, kim harada, neçəyə istəyir bədənini satır, kimsə bir söz deyirmi?! Amma təbliğat aparıb yeniyetmə və gəncləri pozğun həyat tərzinə həvəsləndirmə cəhdinə qarşı adekvat cavab alacaqlar.

Azad seks təbliğatı aparanlar, ailə həyatında ciddi problemləri olanlardır. Harda bir əxlaqsız var- gəlib mediada ictimai və fərdi əxlaq sahəsində "maarifləndirici" fəaliyyət göstərir.

Ümumiyyətlə, ölkədə qadın alverinin, narkotikanın, digər zərərli və təhlükəli halların təbliği qadağandırsa, onda fahişəliyin təbliği də qanunla qadağan olunmalıdır. Çünki bu, bir milli təhlükəsizlik məsələsidir. Necəmi?

Heç kəsə sirr deyil ki, MKİ (CİA) şefi Allen Dallesin SSRİ-yə qarşı "Məhvetmə" planına bənzər doktrinalar hələ tam mənəvi deqradasiyaya uğramamış cəmiyyətlərə, o cümlədən Azərbaycana tətbiq edilir. Əxlaqsızlığın təbliği xüsusi mərkəzlər tərəfindən peşəkarcasına təşkil və idarə olunur.

Dallesin planından mövzumuza birbaşa aidiyyatı olan bəzi detallara nəzər salaq. "...Biz insan beynində xaos yaradaraq, onların dəyərlərini saxtalarıyla dəyişəcəyik və onları bu saxta dəyərlərə inanmağa məcbur edəcəyik. Necə? Biz orada öz həmfikirlərimizi, müttəfiqlərimizi tapacağıq.

Məsələn, incəsənət və ədəbiyyatdan tədricən onun sosial mahiyyətini çıxaracağıq... Ədəbiyyat, teatr, kino ən alçaq insani hissləri təsvir və mədh edəcək.

Biz insanların şüuruna seks, zorakılıq, sadizm, satqınlıq kultunu, bir sözlə hər cür əxlaqsızlığı yeridən və yayan adamları dəstəkləyəcəyik.

Çox az adam nə baş verdiyini başa düşəcək. Lakin biz onları köməksiz vəziyyətə salacaq, gülüş obyektinə çevirəcəyik, onları şərləməyin və cəmiyyətin tör-töküntüsü adlandırmağın yolunu tapacağıq. Xalq əxlaqının əsaslarını təhrif edərək məhv edəcəyik.

Biz bu yolla nəsli nəslin ardınca sarsıdacağıq. İnsanların üzərində uşaq, yeniyetmə yaşlarından işləyəcəyik, əsas stavkanı isə həmişə gənclərə edəcəyik- onları mənəviyyatca korlayacaq, onlardan həyasiz, heyvərə və kosmopolitlər düzəldəcəyik. Biz bunu bax belə edəcəyik!".

Məncə əlavə şərhə ehtiyac yoxdur. Sadəcə onu deyək ki, Overton pəncərəsi vasitəsilə istənilən dəyəri cəmiyyətə zamanla qəbul etdirmək mümkündür.

# “Moskva Ermənistana qarşı lazımi tədbirlər planını artıq hazırlayıb”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*



***Rusiyalı ekspertlərin şərhi***






Rusiya Xarici İşlər Nazirliyi təkəbbürlü Ermənistan hakimiyyətini növbəti dəfə mühasirəyə almağa qərar verdi və sərt bəyanatla çıxış edərək Moskva ilə İrəvan arasında sistemli fikir ayrılıqlarının konturlarını aydın şəkildə göstərdi. Buna səbəb Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın son qalmaqallı açıqlamaları olub. Moskva heç vaxt olmadığı qədər açıq şəkildə bəyan etdi ki, Ermənistan siyasətindən razı deyil. ”Əvvəla, mən istərdim ki, Ermənistanın yüksək rütbəli nümayəndəsi nəhayət qərar versin: ya normal dialoq olsun, hansı ki, bizim erməni tərəfi ilə belə təcrübəmiz olub, ya da belə bəyanatlarla davan etsinlər”,- Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi M.Zaxarova Ermənistanın getdikcə daha açıq-aşkar anti-Rusiya siyasətinə toxunaraq ultimatum formasında təklif edib.

M.Zaxarovanın ritorikasına görə, aydındır ki, Moskva İrəvanın özünə gəlməsini və öhdəliklərinə əməl etməsini, xüsusən də Rusiya prezidentinin də imzaladığı Üçtərəfli Bəyanata əməl etməsini gözləməkdən yorulub. Üstəlik, Moskva, əslində, İrəvandan Ermənistan ərazisindən çıxmaq təklifini gözləyirdi. Beləliklə, Rusiya XİN rəsmi nümayəndəsinin hazırkı bəyanatını birmənalı xəbərdarlıqdan başqa cür qiymətləndirmək çətindir. Bəs rusiyalı politoloqlar bu barədə nə düşünür?

Rusiyalı politoloq, ”Vestnik Kavkaza” agentliyinin baş direktorunun müavini Andrey Petrov ”Caliber” analitik mərkəzinə müsahibəsində qeyd edib ki, ilk növbədə onu nəzərə almaq lazımdır ki, Zaxarovanın brifinqlərdə səsləndirilən cavabları əvvəlcədən işlənib hazırlanır və hətta Mariya Vladimirovna yazılı mətni oxumasa da, sərbəst şəkildə cavab versə belə, bu onun improvizasiyası, bəzi şəxsi emosiyaları deyil, Rusiyanın rəsmi orqanlarının formalaşmış mövqeyidir.

”Onun dediklərinə, səsləndirdiyi incə ifadələrə əsasən, Moskvanın bu və ya digər geosiyasi münasibətlərlə bağlı həqiqətən nə düşündüyü barədə nəticə çıxara bilərik”,- politoloq vurğulayıb.

Belə olan halda, A.Petrovun qeyd etdiyi kimi, Rusiya Ermənistanın 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatın Rusiya üçün prinsipial məqamlarını pozmaq qərarından açıq şəkildə narazıdır.

”Bu, Zəngəzur dəhlizinin Ermənistan hissəsində hərəkətə nəzarətin Rusiya FSB strukturlarının sərhədçiləri tərəfindən həyata keçirilməsi ilə bağlı müddəadır. Necə ki, indi onlar İranla sərhəddədirlər. Nikol Paşinyan rejimi onları aradan götürməyə çalışsa da, bu barədə qərar verə bilmir. Eyni şəkildə Araz çayı boyu İran-Ermənistan sərhədi yaxınlığından keçəcək yol da əvvəllər təsdiq edilmiş razılaşmalara əsasən, Rusiya sərhədçiləri tərəfindən qorunacaq, bu da məntiqlidir, çünki onlar artıq oradadırlar. Amma Ermənistan bu bəndə əməl etməyəcəyinə qərar verdi. Lakin o, heç bir məqamı yerinə yetirmək istəmir, onun üçün nəzarətin yalnız Ermənistanda olması vacibdir”,- rusiyalı politoloq əmindir.

Eyni zamanda, onun fikrincə, Ermənistan-Rusiya siyasi münasibətlərinin ənənələrini nəzərə alsaq, burada heç bir xüsusi problem yoxdur - əgər Rusiya sərhədçiləri İranla sərhədi qoruyursa, Zəngəzur dəhlizinə nəzarətin onların ixtiyarına verilməsi tamamilə məntiqlidir. ”Ermənistan hərbçilərinin orada olmasının təhlükəsizlik cəhətdən heç bir xüsusi mənası yoxdur”, - ekspert hesab edir.

Amma Ermənistan, görünür, belə düşünmür və Rusiya sərhədçilərini erməni sərhədçiləri ilə əvəz etməkdə israrlıdır. Rusiya isə, A.Petrov bildirir ki, ”bundan hədsiz qıcıqlanır, çünki bu, Ermənistanı Rusiyadan uzaqlaşdırmaq cəhdlərini nümayiş etdirmək üçün sadəcə bir növ üsul deyil, bu istiqamətdə əməli işlər görülür”.

”İrəvan Rusiya İkinci Qarabağ Müharibəsinin nəticələrinə yenidən baxılmasını qəbul etmir, 2020-ci il Üçtərəfli Bəyannaməsinə yenidən baxılmasını qəbul etmir və Ermənistan-Azərbaycan nizamlanmasında qeyri-rusiyalı vasitəçilik formatlarından söhbət gedəndə bunu vurğulayır. Rusiya isə təbii ki, öz sərhədçilərinin Zəngəzur dəhlizində, Ermənistan hissəsində yerləşdirilməsini istəyir ki, bu, ümumilikdə dəhlizin rahat işləməsi üçün həm faydalı, həm də konstruktiv olardı”, - politoloq qeyd edir.

Ekspert hesab edir ki, o zaman Ermənistanın özünün və ya ayrı-ayrı həvəskar erməni gömrükçülərinin, yaxud təhlükəsizlik işçilərinin hansısa yolla dəhlizin fəaliyyətinə mane olmaq cəhdlərindən qorxmağa ehtiyac qalmayacaq: ”Rusiya bu marşrutun işləməsində maraqlıdır və bu marşrutla öz mallarını Avropaya və Asiyaya çatdıra bilər. Və Ermənistanın Zəngəzur dəhlizinin reallaşmasına qarşı atacağı istənilən addım Rusiyanı ancaq qıcıqlandıra bilər. Bu halda Moskvanın narazılığı həm də ondan qaynaqlanır ki, bu, ictimai formada edilib və bu, bir növ qapalı danışıqlar deyil, Mirzoyan, Paşinyan, Qriqoryan Rusiya nümayəndələrinə deyirlər ki, rus sərhədçiləri orada olmasın, lakin bu barədə erməni mətbuatı vasitəsilə açıq elan edirlər. Siyasətdə işlər belə aparılmır, bu, açıq-aşkar təxribatdır və qarşıdakına meydan oxumaqdır”.

Andery Petrovun fikrincə, Zaxarovanın Qriqoryana cavab bəyanatı kifayət qədər sərt formada xəbərdarlıq edir ki, Rusiya Ermənistanın qalmaqal yaratmaq niyyətindən xəbərdardır, Moskva İrəvanla konstruktiv əlaqə qurmaq istəyir, lakin ”ermənilərin hücumçu ifadələrdən çəkinməyəcək, qalmaqallı bəyanatlara cavab verəcək: ”Ümumiyyətlə, biz görürük ki, Ermənistan artıq hakimiyyətlər səviyyəsində anti-Rusiya ritorikasını gücləndirir və Paşinyan Aİİ-nin bütün sammitlərinə getsə də, bu, o demək deyil ki, Ermənistan Rusiya və Rusiyanın inteqrasiya layihələri ilə əməkdaşlığa hazırdır. Onun Rusiyadan narazılığını qurutmaq üçün ənənəvi kanalı var- Ermənistan müxalifəti. Əvvəllər hakimiyyət bunu onun vasitəsilə edirdisə, indi öz rəsmi məmurları vasitəsilə edir. Yəni əvvəllər müxalifəti günahlandırıb Ermənistanda demokratiyanın inkişaf etdiyini demək mümkün idisə, Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın son müsahibəsi artıq Rusiya ilə əməkdaşlıq və münasibətlərin səviyyəsini azaltmaq üçün rəsmi bəyanat və İrəvanın rəsmi təklifidir. Təbii ki, Rusiya hakimiyyəti Ermənistanla əlaqələri saxlamaq, onu başqa təsir dairələrinə buraxmamaq üçün yollar, imkanlar axtarır. Moskva bu ölkəyə çoxlu resurs yatırıb və sırf indi Ermənistanda başçılıq edən anti-Rusiya hökuməti olduğuna görə hər şeyin itirilməsini istəmir. Ona görə də Ermənistan tərəfdən anti-Rusiya bəyanatları səslənəndə, Rusiyanın inteqrasiya layihələri tənqid olunanda təəccüblənməyə dəyməz. Hətta Ermənistan böyük ehtimalla KTMT-dən çıxacaq, lakin hələlik Aİİ-də qalacaq. Rusiya da buna cavab olaraq bəyanatlarının dərəcəsini artıracaq.

Bundan sonra Moskvanın hansı addımlar atacağını proqnozlaşdırmaq hələ çətindir, çünki indiyədək biz ancaq bəyanat mübadiləsi görmüşük. Amma hesab edirəm ki, Ermənistanın sözdən-işə keçəcəyi təqdirdə Moskva artıq konkret tədbirlər planını hazırlayıb”.

Rusiyalı politoloq, Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktor müavini Darya Qrevtsovanın fikrincə, Armen Qriqoryanın açıqlamaları həm Azərbaycanı, həm də Rusiyanı təəccübləndirib. Ekspert vurğulayır ki, Ermənistan əvvəl bir şey, sonra başqa şey deyir və İrəvanın siyasi bəyanatlarındakı bu çaşqınlıq, təbii ki, həm Azərbaycanı, həm də Rusiyanı qıcıqlandırır: ”Onların əslində tərəflər arasında əvvəlki razılaşmaların üstündən xətt çəkmələri bizi təəccübləndirdi. Rusiya nəinki Ermənistanın Qərbə üz tutduğunu və onunla sıx əməkdaşlıq etmək istədiyini yaxşı başa düşür, həm də Qərb ölkələrinin Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq istəyini də görür. Məhz buna görə də Qərb son vaxtlar sülh danışıqlarında vasitəçi rolunda fəallaşıb”.

Politoloq deyir ki, Aİ, Fransa və ABŞ hazırda Ermənistanda fəal işləyirlər- bunlar müxtəlif siyasətçilərin oraya səfərləri və xüsusi xidmət orqanları səviyyəsində fəaliyyətdir: ”Üstəlik, indi Ermənistana həm Avropa kəşfiyyatı, həm də Amerika kəşfiyyatı daxil edilir. Və təbii ki, onlar orada öz sistemlərini qururlar ki, bu da başqa ölkələrin maraqlarını pozacaq. Yəni, bu yolla Ermənistanı müstəqil ölkə deyil, öz vassalı edirlər. Şübhəsiz ki, bu, çox üzücüdür, çünki Ermənistanın həm Rusiya, həm də Azərbaycanla birlikdə yeni kursa və yeni siyasətə başlamaq, sülh müqaviləsi imzalamaq və kommunikasiyaları- o cümlədən Türkiyə ilə- blokdan çıxarmaq üçün bütün imkanları və şəraiti var idi.

Aydındır ki, sülh müqaviləsi və onun icrası Qərb ölkələrinin maraqlarına uyğun deyil. Ermənistanın problemi nə qədər çox olsa, Qərb də bir o qədər ona təsir edə, ram edə, şərtlərini diktə edə biləcək. Amma hətta coğrafi baxımdan- Ermənistan üçün Avropa və ABŞ hara, Rusiya hara. Yəni, tam aydındır ki, Qafqazda sülhün və sabitliyin olmasında əsl maraq kimə aiddir və kim guya sadəcə sülh və sülh yolu ilə nizamlanma üçün bunları edir. Ona görə də inanıram ki, Ermənistandan hələ belə ziddiyyətli bəyanatlar gələcək və Rusiya baş verənlərdən müvafiq nəticə çıxaracaq”.

D.Qrevtsova vurğulayır ki, Armen Qriqoryanın özünün kim olduğunu xüsusilə qeyd etmək lazımdır: ”O, Soros komandasındandır və Moskvada çox bəyənilmir, çünki o, əsl satqındır və Ermənistanı Rusiya ilə toqquşdurmaq üçün hər şeyi edir. Ona görə də indi bu tərəfdaşla əməkdaşlıq baxımından belə qeyri-sabit vəziyyət yaranıb: etibarsız və gözlənilməz Ermənistan bütün mövcud razılaşmaların üstündən xətt çəkə bilər və bu, çox həyəcanverici siqnaldır. Moskva və Bakını məyus edən hər şey, təbii ki, Ermənistanı hər vasitə ilə özünə tabe etmək istəyən Qərbi sevindirir”.

***Tərcümə - Elçin Bayramlı***

## Çimərlik mövsümündə bu qaydalara mütləq əməl edin!



"Ümumiyyətlə, təbiət ərazilərindən istirahət məqsədilə istifadə edən insanlar bəzi qaydaları bilməlidirlər. Yəni, ətraf mühitin çirklənməməsi üçün elementar qaydalar var ki, bunlara riayət etmək lazımdır. Məsələn, istifadə etdikləri məişət əşyalarını, qida və ərzaq tullantılarını ətrafa necə gəldi səpələmək həm ətraf mühit üçün ziyandır, həm də etik normalara ziddir". Bu sözləri SİA-ya açıqlamasında ekoloq Cəmşid Quliyev deyib.

Onun sözlərinə görə, ən ideal variant budur ki, həmin insanlar tullantıları yığıb və torpaqda çökək qazıb basdırsınlar: "Bu halda ətrafa zərər verilməz. Amma qalan digər hallarda, yəni zibili bir yerdən götürüb başqa yerə atmaq, yaxud görünməyən yerə qoyub getmək olmaz. Bunu zatən külək, yaxud sahibsiz itlər ətarafa dağıdacaq".

Cəmşid Quliyev sözlərinə belə davam edib: "İstirahətə hamının ehtiyacı var və təbiətdən zövq almaq icazəsi hamıya verilir. Sadəcə olaraq qaydalara əməl etmək lazımdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xüsusi departamenti var ki, bu məsələlərə xüsusi nəzarət edir".

***A.Vəli***

# Yeni internet provayderin gəlişi nəyi dəyişəcək?







"Ümumi olaraq ölkədə bir çox provayder fəaliyyət göstərir, amma təəssüf ki, bunların çoxunda şəhərdən kənarda kəsimlər yaşanır. Mən özüm "CCNet", "Aztelekom", "Azeronline" kimi provayderlərdən gündəlik fərqli-fərqli məkanlarda istifadə edən biri olaraq bunu deyə bilərəm. Çünki Bakıdan biraz kənara çıxdıqda bu provayderlərdə internet kəsilməsi, tez-tez internetin sürətində enmə və bu kimi yüklənmələrdə internetin çöküşü kimi halları çox yaşayıram". Bu sözləri SİA-ya açıqlamasında SMM Manager (Sosial Media Marketing Mütəxəssisi) Murad Yazimov deyib.

Onun sözlərinə görə, yeni internet provayderinin gəlişi rəqabətin artmasına müsbət təsir edəcək: "Çünki yeni bir provayder aktivləşəndə digərlərinə rəqib olur və rəqabət artdıqda hansısa provayder öz işlərinə daha çox fikir verməyə, müştəriləri loyal etmək üçün öz xidmətlərinin keyfiyyətini yüksək tutmağa çalışırlar. Bu baş verdikdə biz bir provayderdən razı qalırıq və başqasına keçid etməyi düşünmürük. Amma təəssüf ki, hal-hazırda bir çox provayderlərdə tez-tez kəsilmələr və yüklənmələr yaşanır. Bu məqsədlə də araşdırma edirəm ki, işlərimizdə ləngimə yaratmayacaq provayderlərdən istifadə edək".

Murad Yazimov sözlərinə belə davam edib: "Ümumilikdə isə mən yeni provayderin gəlişini müsbət qarşılayıram. Çünki həm yeni bir provayder gəldikdə onun xidməti çox yüksək olur, həm də bu yüksək xidməti görüb müştəri axını olduqda digər provayderlər də üstün xidmət göstərmək üçün əllərindən gələni edəcəklər. Bu da istifadəçilərin iş keyfiyyətinə çox müsbət təsir göstərəək".

***Ayşən Vəli***

## Hansı hallarda məhkum vaxtından əvvəl cəzadan azad edilə bilər?



"Məhkum bir neçə əsasla vaxtından əvvəl cəzadan azad edilə bilər. Burada bir çox məqam var". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Əkrəm Həsənov deyib. Onun sözlərinə görə, bu məhkəmənin qərarı ilə olsa, məhkəmə onu vaxtından əvvəl azadlığa buraxa bilər: "Yaxud da cənab Prezident məhkumu əfv edə bilər. Bununla yanaşı Milli Məclis Amnistiya aktı tətbiq edə bilər".

Əkrəm Həsənov sözlərinə belə davam edib: "Amnistiya aktı fərdlərə aid olmur. Ümumən yazılır ki, hansısa qanunla cəzaya məhkum edilmiş şəxslər buraxılsın, yaxud da müddət azaldılsın. Bir də belə bir məqam var ki, şəxs özü müəyyən müddətdən sonra məhkəməyə müraciət etsin. Adətən bunu həbsdə özünü düzgün aparan və islah olmuş şəxslər edir".

# CityNet GameSummit festivalının əsas tərəfdaşıdır

**CityNet internet provayderi Azərbaycanda ilk dəfə baş tutacaq kütləvi oyun festivalı olan GameSummit-in əsas tərəfdaşıdır. İyunun 11-də Bakı İdman Sarayında keçiriləcək GameSummit video oyunları, virtual reallıq, pop mədəniyyəti, komiks və digər oxşar maraqların fanatlarını bir araya toplayacaq.**




Festival həm onlayn, həm də oflayn formatda keçiriləcək ən müxtəlif əyləncələr vasitəsilə oyun həvəsindən zövq almaq üçün möhtəşəm bir platforma olacaq. Festival çərçivəsində yarışlar və müxtəlif simulyasiyalar da daxil olmaqla ən fərqli oyunlar üzrə çempionatlar keçiriləcək. İştirakçılar ən yaxşıların müəyyən ediləcəyi maraqlı turnirlərdə mübarizə apara biləcəklər.

Həmçinin, klassik oyunların atmosferini yenidən yaratmaq və oyun masalarında strateji döyüşlərdən həzz almaq üçün retro və stolüstü oyun çempionatları da təşkil olunacaq. Tədbir çərçivəsində hər kəsin unikal oyun təcrübəsi əldə edə və ən son virtual əyləncədən həzz ala biləcəyi VR zonası da təşkil olunacaq.

CityNet-in əsas tərəfdaşlığı ilə ölkəmizdə ilk dəfə baş tutacaq bu kütləvi tədbir hər bir iştirakçının maraqlı oyun dünyasına düşə biləcəyi, emosiyalar və unudulmaz sərgüzəştlər yaşaya biləcəyi bir festivala çevrilməyi hədəfləyib.

CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytına keçid edərək və ya *1177 ilə əlaqə saxlayaraq əldə etmək mümkündür.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**